# QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 162 (6362) 9 sentyabr 2021-ci il **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## Böyük tarixi qələbənin növbəti təntənəsi - Füzuli Beynəlxalq Hava Limanı



## Azərbaycan idmanı uğurlu inkişaf dövrünü yaşayır



Bax 15

## Rusiya və Ermənistana ciddi mesaj - Qarabağda Türkiyə hərbçilərinə şəhərcik salınır?




## Xankəndidən Şuşaya qaçanlar - Azərbaycana sığınmaq istəyənlər kimlərdir?




## Kitabların insan həyatında rolu nədən ibarətdir?



Bax 6

Kitab insanların hisslərini, fikirlərini uzaqdakılara və sonra gələn nəsillərə çatdırmaq üçün çap olunmuş və ya yazılı vərəqlərin bir araya gəlməsi ilə kağız üzərində yaradılan əsərdir.

## YAP Gənclər Birliyinin sədri gənclərlə görüş keçirib



Bax 3

## DTX qanunsuz silahlı birləşməyə qoşulan şəxsləri həbs edib



Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində xarici dövlətin ərazisində qanunsuz silahlı birləşmənin tərkibində iştirak edən şəxslər saxlanılaraq məsuliyyətə cəlb olunublar...

Bax 5

## Virusun 4-cü dalğası gəlir?



"Pandemiya dövründə koronavirusun bir neçə ştamı ilə rastlaşdıq. Hal-hazırda isə yayılma qabiliyyəti və daha çox ölüm riski yüksək olan bir variantla üz-üzə gəlmişik...

Bax 5

## Paşinyan açıqladı: "Türkiyə ilə münasibətləri normallaşdırmağa hazırıq"



Ermənistan Türkiyə ilə münasibətləri normallaşdırmağa hazırdır. Biz bunun üçün danışıqlara da hazırıq. Bu sözləri ölkənin baş naziri Nikol Paşinyan hökumətin iclasında söyləyib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu məsələ ilə bağlı açıqlamasını xatırladan Paşinyan deyib: "Biz bu bəyanatlarda Ermənistan-Türkiyə münasibətlərinin normallaşması barədə müzakirələri görürük. Eləcə də avtomobil və dəmir yollarının bərpası məsələsi gündəmdədir. Biz daha geniş kontekst ala biləcək belə danışıqlara hazırıq". Onun sözlərinə görə, bu məsələdə Rusiya, Avropa İttifaqı, Fransa, ABŞ, Çin və Hindistan da maraqlıdır.

## Azərbaycan-Türkiyə birgə təlimləri: Dosta güvən, düşmənə göz dağı



Bax 10

## İşğaldan azad olunan ərazilərimiz müasir məkana çevrilir



Bax 12

## "Şakira ilə sevgili olmağa başlayanda..."



Bax 16

# Böyük tarixi qələbənin növbəti təntənəsi - Füzuli Beynəlxalq Hava Limanı

## *Prezident İlham Əliyev: "Bu aeroport Qarabağın hava qapısıdır"*










Bəli, ötən il torpaqlarımızın müharibə yolu ilə 44 gün ərzində işğaldan azad edildiyi gündən bu günə kimi Prezident İlham Əliyev cənablarının rəhbərliyi və nəzarəti ilə işğaldan azad olunmuş torpaqlarımızda böyük quruculuq, bərpa işləri aparılmaqla yanaşı, dövlət başçımız həmin bölgələrə dərhal tarixi səfərlər etməsi və Qalib Komandanın öz sevincini, görüləcək işlərlə bağlı məlumatları xalqı ilə paylaşması və görülən işlərlə bağlı ictimaiyyəti məlumatlandırması hər bir azərbaycanlıya böyük qürur və fəxarət hissi yaşadır. Ən əsası isə, işğalçı ölkə ilə bərabər, bütün dünya da şahidi olur ki, torpaqların əsl sahibləri qayıdıb. Azərbaycan öz əbədi və əzəli torpaqlarını işğalçılardan azad etdi.Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva yanvarın 14-də Azərbaycanın işğaldan azad edilən mədəniyyət paytaxtı Şuşa şəhərində olması, səfər zamanı dövlətimizin başçısının avtomobili özünün idarə etməsi isə hər kəsə açıq şəkildə mesaj verdi ki, "Mən Şuşaya Zəfər yolu ilə gəlmişəm!". Azərbaycan xalqı və Prezidenti heç kəsdən və heç nədən qorxmur. Biz qalibik! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!

Bəli, dövlət başçısı səfəri zamanı Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli-Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoydu: "Bu gün yanvarın 14-də Füzuli Beynəlxalq Hava Limanının təməli qoyuldu. Mən hava limanının tikintisi ilə bağlı Azərbaycan xalqına məlumat vermişdim. Bu, azad edilmiş bölgələrimizin inkişafı üçün çox önəmli bir layihədir".Bu gün isə Şuşaya ilk səfəri zamanı verdiyi vədlərin nəticəsini növbəti səfər zamanı görürük.

### Qarabağın ilk beynəlxalq hava limanı

5 sentyabr, 2021-ci il. Böyük tarixi qələbənin növbəti təntənəsi - işğaldan azad olunmuş Füzulidə inşa edilən beynəlxalq hava limanına AZAL-a məxsus "QARABAĞ" adlı "Airbus A340-500" tipli sərnişin təyyarəsinin saat 11 radələrində ilk enişinin olmasıdır.Vüqar Bayramov: "Füzuli Beynəlxalq Hava Limanına Bakıdan ilk uçuş tarixi günlərdən biri kimi qalacaq "Millət vəkili, 84 saylı Füzuli seçki dairəsindən deputat seçilən Vüqar Bayramov Füzuli Beynəlxalq Hava Limanına Bakıdan ilk uçuşa fikir bildirib: "Azərbaycan Hava Yolları"na məxsus "Airbus A340-500" tipli sərnişin təyyarəsi ilə Bakıdan işğaldan azad olunmuş Qarabağımızın ilk hava limanına sınaq uçuşu həyata keçirildi. Bu gün ölkəmiz üçün tarixi günlərdən biridir. Tezliklə Qarabağ səmasında havaya qalxan təyyarələr beynəlxalq uçuşlar həyata keçirəcəklər. Qarabağımız və bütövlükdə ölkəmiz üçün xeyirli və düşərli olsun!"

Bəli, bu tarixi gündür. Çünki ilk dəfə Qarabağ səmasında təyyarələr havaya qalxır. Simvolik məqam ondan ibarətdir ki, həmin təyyarə "QARABAĞ" adını daşıyır (AZAL-ın donanmasında olan təyyarələr Azərbaycanın rayon və şəhərlərinin şərəfinə adlandırılmışdır).Bundan əlavə, Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də bu gün Füzuli hava limanına eniş icra edib. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Sərnişin təyyarəsi ilə Bakı - Füzuli marşrutu üzrə uçuş müddəti təxminən 35 dəqiqə təşkil edib. Bütün bunlar Qalib liderimiz, Prezident İlham Əliyevin tikinti işlərinə birbaşa nəzarəti sayəsində mümkün olmuşdur. Dövlət başçısının qeyd etdiyi kimi, bu hava limanı Qarabağa hava qapısı olacaq.

Gələcək aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi başa çatıb.Sentyabrın sonunda istifadəyə verilməsi nəzərdə tutulan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib. Həmçinin, Füzuli beynəlxalq hava limanını "Zəfər Yolu" və Şuşa şəhərinə aparan magistral yolu ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Bundan əlavə, hava limanının ərazisində yaşıllaşdırma işləri aparılır.Qeyd edək ki, həmçinin dövlət başçısının tapşırığı ilə Laçın və Zəngilan rayonlarında beynəlxalq hava limanlarının tikintisi davam edir.

### Prezident İlham Əliyev Füzuli aeroportunu Qarabağın hava qapısı adlandırıb

Bunu Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfər zamanı Füzuli Beynəlxalq Hava Limanı barədə danışarkən bildirib.Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Füzuli Beynəlxalq Hava Limanına gedərkən çəkdiyi videogörüntüdə dövlətimizin başçısı deyib: "Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum indi isə gəlirik inşaat işləri ilə tanış olmağa. Bu aeroport Qarabağın hava qapısıdır".

Bəli, budur qətiyyətin və milli dəyanətin təntənəsi. Budur, dünyasəviyyəli, cəsarətli lider! Budur, xalqın Prezidenti olmaq! Beləliklə, Prezident İlham Əliyev ata vəsiyyətini şərəflə yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi.Bəli, bu gün həqiqətən də tarixi gündür. Füzulinin illərlə gözlədiyinin şahidi olduq. 30 ildən sonra Qarabağ səmasında simvolik mənə olaraq "Qarabağ" adını daşıyan təyyarə Qarabağın ilk hava limanında eniş etdi. Bir sözlə, Qarabağın "səma qapıları" açıldı. Gözümüz aydın olsun və bu tarixi gün də Qarabağımız və bütövlükdə ölkəmiz üçün xeyirli və düşərli olsun! Çünki Qarabağ Ahərbaycandır!!!

**RƏFİQƏ KAMALQIZI**



# YAP Gənclər Birliyinin sədri gənclərlə görüş keçirib







Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Bəxtiyar İslamov paytaxtın Yasamal, Binəqədi, Nərimanov, Xəzər, Qaradağ, Xətai, Sabunçu, Nizami, Səbail, Suraxanı, Nəsimi, Pirallahı rayon təşkilatlarının, o cümlədən Sumqayıt şəhər, Abşeron, Şuşa, Zəngilan və Qubadlı rayon təşkilatlarının fəal gəncləri ilə görüşüb.

SİA-nın verdiyi məlumata görə, görüşdə Bəxtiyar İslamov YAP Gənclər Birliyinin yeni formalaşmış heyəti, fəaliyyət istiqamətləri, o cümlədən həyata keçirdiyi işlərdən bəhs edib. Yeni Azərbaycan Partiyasının VII Qurultayında Prezident cənab İlham Əliyev tərəfindən Azərbaycan gənclərinin qarşısına qoyulmuş tapşırıq və hədəflərdən danışan Bəxtiyar İslamov bildirib ki, YAP Gənclər Birliyi yalnız partiyamızın sıralarında təmsil olunan gənclərin deyil, bütün Azərbaycan gənclərinin birliyi olmaq istiqamətində fəaliyyət göstərməyi başlıca məqsəd seçib. Bu istiqamətdə cəmiyyətdə fərqli baxışları olan gəncləri əhatə etməklə onlar arasında kommunikasiya qurmaq üçün ardıcıl tədbirlər keçirilir, bitərəf gənclər layihələrə aktiv şəkildə cəlb olunur.

B.İslamov Azərbaycan gənclərinin bilikli, dünyagörüşlü, müasir yeniliklərə bələd, o cümlədən öz milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər ruhda yetişməsinin YAP Gənclər Birliyinin fəaliyyətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayıb.

Görüşdə qarşıda duran vəzifələrin layiqincə və yüksək səviyyədə yerinə yetirilməsi üçün gənclərin üzərinə düşən vəzifələr müzakirə edilib. Görüş tədbir iştirakçılarını maraqlandıran sualların cavablandırılması ilə davam edib.

# "Multikulturalizm və tolerantlıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir"

## *YAP Veteranlar Şurasının təşkilatçılığı ilə "Etnik müxtəliflik və azərbaycançılıq" mövzusunda videokonfrans keçirilib*

***Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının təşkilatçılığı ilə "Etnik müxtəliflik və azərbaycançılıq" mövzusunda videokonfrans keçirilib.***



Tədbirdə YAP Veteranlar Şurasının üzvləri, partiyanın Bakı, Sumqayıt, Abşeron, Şəki-Zaqatala və Cənub zonaları üzrə yerli təşkilatlarının fəalları iştirak ediblər.

Videokonfransda giriş sözü ilə çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, ulu öndər Heydər Əliyev xalqımız və dövlətimiz üçün misilsiz xidmətlər göstərib. Onun sözlərinə görə, ölkəmizdə yaşayan bütün xalqları, etnik qrupları birləşdirən azərbaycançılıq ideologiyası da məhz ümummilli lider Heydər Əliyev tərəfindən dövlət ideologiyası kimi təsbit olunub. Bu gün azərbaycançılıq ideologiyasından söhbət açarkən digər məqamlarla yanaşı, bu ideologiyanın tərkib hissəsi olan multikulturalizm və tolerantlıq məsələlərinə xüsusi toxunmaq yerinə düşər. Çünki azərbaycançılıq ideologiyası



həm də azərbaycanlıların ölkədəki digər etnik qruplara tolerant münasibətinin, sülh içərisində yaşamaq istəyinin bariz göstəricisidir. Vurğulamaq yerinə düşər ki "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" deyən ulu öndər Heydər Əliyev Azərbaycan xalqının əsrlər bo-



yu təşəkkül tapmış multikulturalizm dəyərlərinə ən yüksək hüquqi-siyasi qiymət verib, multikultural cəmiyyətin formalaşdırılmasında müstəsna rol oynayıb, məhz bunun nəticəsində də multikulturalizm və tolerantlıq Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qəbul edilib.

A.Rəhimzadə qeyd edib ki, ümum-





milli lider Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının mərkəzində Azərbaycanda yaşayan xalqların tarixi, mənəvi-əxlaqi, mədəni ənənələr əsasında vahid birliyi ideyası dayanır. Ulu Öndər Heydər Əliyevin qurduğu müasir, müstəqil Azərbaycan bu gün Onun layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə



uğurla inkişaf edir.

"Etnik müxtəliflik və azərbaycançılıq" mövzusunda məruzə ilə çıxış edən Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla deyib ki, Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımız bərabərhüquqludur və öz



inancına görə azaddır. Onun sözlərinə görə, Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Bu gün Azərbaycan etnik müxtəlifliyə görə zəngin ölkədir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm siyasəti müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm xalqımızın həyat tərzinə çevrilib. Multikulturalizmin vətəndaş cəmiyyətində həyat tərzinə çevrilməsi onun inkişafının ən yüksək mərhələsidir. Hazırda dünyanın bir sıra nüfuzlu universitetlərində Azərbaycan multikulturalizminin tədris olunması da ölkəmizin böyük uğurudur.

"Azərbaycanda müxtəlif dini konfessiyaların, etnik qrupların nümayəndələri qardaşlıq şəraitində yaşayırlar", - deyən akademik qeyd edib ki, Azərbaycan xalqının ruhundakı multikulturalizm əhval-ruhiyyəsi bütün dünyaya yaxşı məlumdur. Ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası ölkəmizdə yaşayan bütün xalqları öz ətrafında birləşdirir. Biz 44 günlük Vətən müharibəsində müxtəlif xalqların, etnik qrupların nümayəndələrinin topaqlarımızın işğaldan azad olunmasında göstərdiyi qəhrəmanlıqların şahidi olduq.

Kamal Abdullanın sözlərinə görə, Azərbaycanda multikulturalizm ənənələrinin qorunmasında, inkişafında və təbliğ olunmasında Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri danılmazdır: "Bu gün Azərbaycan multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir".

Tədbirdə məruzə ətrafında YAP Veteranlar Şurasının üzvləri Adilə Abasova və Ədalət Fərəcov çıxış ediblər. Sonda akademik Kamal Abdulla videokonfrans iştirakçılarının suallarını cavablandırıb.



# Vüqar Rəhimzadə: ”Tarixi Zəfərimiz gənclərin milli ruhda tərbiyəsində mühüm rola malikdir”

***“Qırx dörd günlük İkinci Qarabağ müharibəsi hər bir Azərbaycan vətəndaşının, o cümlədən gəncinin torpaq, Vətən sevgisini nümayiş etdirdi. Dövlət başçısı İlham Əliyevin "hücum" əmrini daim səbirsizliklə gözləyən gənclərimiz 27 sentyabr 2020-ci il tarixində Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə hücumlarının qarşısını almaq üçün Ali Baş Komandanın "İrəli, Azərbaycan əsgəri!" çağırışını böyük ruh yüksəkliyi ilə qarşıladılar. Həmin vaxtlarda könüllü olaraq Vətən müharibəsində iştirak etmək üçün gənclərimizin müraciətlərinin sayı-hesabı yox idi.***



Bu, qürurverici olmaqla yanaşı, onların böyüdükləri ailələrdə dəyərlərin necə yüksək səviyyədə aşılandığına, dövlətə, xalqa bağlılıqlarına bir daha işıq saldı. Tarixi Zəfərimizi qanları ilə yazan şəhidlərimizin ruhu qarşısında baş əyir, onların valideynlərinə belə qəhrəman oğullar böyütdükləri üçün minnətdarlığımızı bildiririk. Dövlət başçısı İlham Əliyev 44 günlük Vətən müharibəsində tarixi Zəfərimizi şərtləndirən amillərdən bəhs edərkən daim torpaq, Vətən sevgisini, vətənpərvərlik hisslərinin böyüklüyünü önə çəkir. Əbəs yerə deyilmir ki, torpaq, əgər uğrunda ölən varsa, Vətəndir! Bu fikir tarixi Qələbəmizdən sonra daha çox və aktual səslənir. Əgər gənclərimiz 44 günlük Vətən müharibəsində ”Vətən mənə oğul desə, nə dərdim” kimi çağırışlar edirdilərsə, bu gün artıq qürurla deyirik ki, Vətən nəinki sizə oğul dedi, eyni zamanda, qucaq açdı, vətənpərvərliyinizi, sevginizi, torpağa bağlılığınızı şəhidlik kimi ən yüksək zirvə ilə dəyərləndirdi”. Bu fikirləri ”İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dövlət başçısı İlham Əliyev sentyabrın 7-də Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən bir daha bu kimi məqamlara xüsusi diqqət yönəltdi: ”Prezident İlham Əliyev ”İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır” çağırışını etməklə şəhidlərimizin, qazilərimizin həyat yolunun bir vətənpərvərlik məktəbi olduğunu və illər keçdikcə bu məktəbin gənclərimizin yetişməsində, milli ruhda tərbiyəsində nə qədər böyük rol oynayacağının şahidi olacağıq”.

Baş redaktor diqqəti cənab İlham Əliyevin videoformatda keçirdiyi qəbulda səsləndirdiyi digər fikirlərə də yönəldib: ”Dövlət başçısı İlham Əliyev gənclərimizin ənənəvi dəyərlər əsasında tərbiyə almasının vacibliyini bildirərək vurğulamışdır ki, həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Milli dəyərlərimizi dərk etməli, onları yaşatmalı və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Burada vətənpərvərlik hissləri ön planda olmalıdır. Bütün bu çağırışlar fonunda ölkə Prezidenti bu fikri böyük qürur hissi ilə bildirmişdir ki, gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Çünki uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq. Bundan sonra müzəffər xalq, qalib ölkə olmağımızla qürur duyacağıq”.

V.Rəhimzadə bildirib ki, dövlət başçısı İlham Əliyevin istər Vətən müharibəsi, istərsə də postmüharibə dövründə hər bir müsahibəsi, müraciəti, nitqi bugünümüzün reallıqlarına baxış fonunda gələcəyimizlə bağlı çağırışları özündə ehtiva edir: ”30 ilə yaxın müharibə şəratində olan Azərbaycan bu gün tarixinin ən möhtəşəm dövrünu yaşayır. İşğaldan azad edilmiş torpaqlarımızda bərpa və quruculuq işləri həyata keçirilir, Böyük Qayıdışın tezləşdirilməsi üçün zəruri addımlar atılır. Zəfərimiz milli qürurumuzu, kimliyimizi özümüzə qaytarmaqla bizi sabaha daha böyük inamla addımlamağa, başımızı uca tutmağa səslədi. ”Dəmir yumruq” dosta qürur, düşmənə göz dağı oldu. Beləliklə, Ali Baş Komandan İlham Əliyev həm siyasi arenada, həm də döyüş meydanında zəfər qazanan, Azərbaycan torpaqlarını 30 il sürən işğaldan 44 günə azad edən, ərazi bütövlüyümüzü bərpa edən böyük Sərkərdə kimi tarixə düşdü. Yeni tarix yazıldı, Azərbaycanda yeni mərhələ başladı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın Zəfər və qəhrəmanlıq simvoluna çevrildi. Bu gün Azərbaycan gənci bu reallıqlar fonunda gələcəyə daha böyük inamla addımlayır. Dövlət başçısının hər bir çıxışında gənclərə böyük çağırışlar edilir. Eyni zamanda, bu gün yaşlı nəslin təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdətin yardılması prioritet məsələ kimi öndədir. Azərbaycan dövlətinin siyasətində gənclərimizin dövlət idarəçiliyində irəli çəkilməsi, onların malik olduqları potensialdan istifadə əsas tələblər sırasındadır. Ölkəmizdə təhsilin, elmin inkişafına göstərilən diqqət və qayğı gələcəyimiz olan gənclərin hərtərəfli inkişafına dəstəkdən irəli gəlir. Müasirlik, yüksək keyfiyyətli təhsil və işgüzarlıq olan yerdə gəncliyə xas yenilikçi düşüncə yeni mühiti formalaşdıra bilər. Məhz bu keyfiyyətlərə söykənərək belə bir inam ifadə olunur ki, hazırda müasir dünyada qarşılaşdığımız bir çox problemlərin həlli məhz gəncliyin tükənməz enerjisi və qətiyyəti sayəsində həllini tapacaq. Dövlət başçısı İlham Əliyevin 11 aprel 2018-ci il prezident seçkilərində qələbəsindən sonra keçirilən möhtəşəm tədbirdə səsləndirdiyi ”Mən Azərbaycan gənclərinə üz tutub deyirəm, - görürəm ki, burada toplaşanların əksəriyyəti gənclərdir, - ölkəmizin gələcəyi sizin əlinizdə olacaq” çağırışı da özündə bu məqamları ehtiva edirdi. 44 günlük İkinci Qarabağ müharibəsi bir daha bu çağırışların hansı müsbət nəticələrə yol açdığını nümayiş edirdi. Müzəffər Ordumuzun yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir! Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir”.

# Yeni Azərbaycan Partiyası etimadın və siyası həmrəyliyin ünvanıdır!

## *YAP Qusar rayon təşkilatının X hesabat konfransı keçirilib*




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatının videoformatda X hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə müstəqil Azərbaycan dövlətinin memarı, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiqləndikdən sonra YAP Qusar rayon təşkilatının sədri David İbramxəlilovun hesabat məruzəsi dinlənilib. Bildirib ki, Yeni Azərbaycan Partiyası etimadın və siyası həmrəyliyin ünvanıdır. YAP Azərbaycanın alternativsiz siyasi gücünə, Cənubi Qafqazın ən böyük siyasi təşkilatına çevrilib. Partiyamız yarandığı gündən müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatının inkişaf etdirilməsi, demokratik təsisatların bərqərar olunması istiqamətində səylər göstərib və buna nail olub.

D.İbramxəlilov qeyd edib ki, hazırda YAP Qusar rayon təşkilatı 100 ərazi ilk partiya təşkilatında 6409 üzvü birləşdirir. Hesabat dövründə partiya sıralarına 584 nəfər yeni üzv qəbul olunub. Partiya üzvlərinin 3102 nəfəri gənclər, 2879 nəfəri isə qadınlardır. Sonra YAP Qusar rayon təşkilatının Nəzarət Təftiş Qrupunun sədri İkram Tumarxanov hesabat məruzəsi ilə çıxış edib.



Müzakirələr zamanı çıxış edən YAP Qusar rayon təşkilatı İdarə Heyətinin üzvü, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Azər Badamov, rayon təşkilatı İdarə Heyətinin üzvü, Qusar rayon Heydər Əliyev Mərkəzinin direktoru Neva Abduraxmanova, rayon təşkilatının sədr müavini, rayon Gigiyena və Epidemiologiya mərkəzinin direktoru Nadirşah Şirinov, təşkilatın Gənclər Birliyinin sədr müavini Ayaz Abdullayev hesabat dövründə görülən işlərdən bəhs ediblər.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, ölkəmiz yeni hədəflərə doğru inamla irəliləyir: ”Prezident İlham Əliyevin 2018-ci ildə keçirilən andiçmə mərasimindəki nitqində qarşıya qoyduğu vəzifələr, müəyyənləşdirdiyi inkişaf prioritetləri uğurla həyata keçirilir. Bu baxımdan son 3 il islahatlar konsepsiyasının reallaşması, cəmiyyət həyatına





gətirdiyi yeniliklər baxımından olduqca əlamətdardır. Bu illərin ən mühüm hadisəsi, uğuru torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası oldu. 2018-ci il andiçmə mərasimində Aprel döyüşlərinə diqqət yönəldən dövlət başçısı bildirmişdir ki, hərbi qələbəmiz Azərbaycan xalqının gücünün, yenilməz ruhunun, işğalla heç vaxt barışmayacağının, torpaqlarımızı azad edəcəyimizin təsdiqidir. Məhz ölkə Prezidentinin həyata keçirdiyi siyasət, bütün istiqamətlərdə görülən kompleks tədbirlər 44 günlük Vətən müharibəsində tarixi Qələbəmizlə nəticələndi. Qarşıdakı illərdə xalqımızı cənab İlham Əliyevin rəhbərliyi ilə yeni zəfərlər və uğurlar gözləyir”.

Zəfərimizin yaratdığı reallıqların Yeni Azərbaycan Partiyasının qarşısına qoyduğu vəzifələrdən bəhs edən Ə.Tağıyev YAP Qusar rayon təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıb. Konfransda YAP Qusar rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.









# Yeni Azərbaycan Partiyası 30 illik yubileyinə daha fəal, yeni keyfiyyətdə qədəm qoyur

## *YAP Quba rayon təşkilatı hesabat verdi*










Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatının videoformatda XI hesabat konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Konfransın gündəliyi təsdiq edildikdən sonra YAP Quba rayon təşkilatının sədri Yusif Abidovun hesabat məruzəsi dinlənilib. Bildirib ki, rayon təşkilatının X konfransından keçən 3 ildən artıq müddət ərzində ölkəmizin həyatında mühüm uğurlar əldə edilib, iqtisadi, sosial və digər sahələrdə əsaslı irəliləyişlər olunub, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənib, beynəlxalq nüfuzu xeyli artıb. Yeni Azərbaycan Partiyasının sədri, ulu öndər Heydər Əliyev ideyalarının və onun siyası kursunun qətiyyətli davamçısı, ölkə prezidenti İlham Əliyevin çoxşaxəli səmərəli fəaliyyəti YAP-ın aparıcı mövqeyini daha da möhkəmləndirir.

Y.Abidov qeyd edib ki, Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatı 91 ərazi ilk partiya təşkilatında 9040 üzvü birləşdirir. Onların 3678 nəfəri qadınlar, 1307 nəfəri isə gənclərdir. X konfransdan ötən dövr ərzində rayon təşkilatının sıralarına 3077 nəfər üzv qəbul edilib.

Sonra YAP Quba rayon təşkilatının Nəzarət-Təftiş Qrupu sədri Cəlal Qəribovun hesabat məruzəsi dinlənilib. Müzakirələr zamanı Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev, Milli Məclisin deputatı Vahid Əhmədov, YAP Quba rayon təşkilatının Şura üzvləri - Elza Orucova və Habil Bayramlı, rayon təşkilatının Qadınlar Şurasının sədri Aysel Şeydayeva hesabat dövrü ərzində görülən işlərdən bəhs ediblər.









Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyev bildirib ki, Yeni Azərbaycan Partiyasının Qurultaylarında qəbul edilən tarixi qərarlar ölkəmizin ictimai-siyasi həyatına yeniliklər gətirib, gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından mühüm rol oynayıb. Vurğulayıb ki, VII Qurultayda qəbul olunan qərarlar, dövlət başçısı və partiyamızın Sədri cənab İlham Əliyevin nitqində qarşıya qoyulan vəzifələr göstərir ki, hər zaman siyasi proseslərin önündə olan Yeni Azərbaycan Partiyası 30 illik yubileyinə daha fəal, yeni keyfiyyətdə qədəm qoyur və fəaliyyətini yeni tələblərə uyğun quraraq bundan sonra da qarşısında dayanan vəzifələrin öhdəsindən layiqincə gələcək.

Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində yazdığı yeni tarixdən geniş bəhs edən Ə.Tağıyev YAP Quba rayon təşkilatının gələcək fəaliyyətinə uğurlar arzulayıb. Konfransda YAP Quba rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib.

# DTX qanunsuz silahlı birləşməyə qoşulan şəxsləri həbs edib

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində xarici dövlətin ərazisində qanunsuz silahlı birləşmənin tərkibində iştirak edən şəxslər saxlanılaraq məsuliyyətə cəlb olunublar. SİA DTX-nin saytına istinadən xəbər verir ki, istintaqla Azərbaycan Respublikasının vətəndaşları - 1980-ci il təvəllüdlü Cumayev Mənsur Məmmədəli oğlunun və 1971-ci il təvəllüdlü Cahangirov Nəsir Qaçay oğlunun ölkə hüdudlarından kənarda, getdikləri dövlətin və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmayan silahlı birləşmənin fəaliyyətində iştirak etdikləri müəyyən edilib.



Aparılan araşdırmalara əsasən məlum olub ki, Mənsur Cumayev və Nəsir Cahangirov qanunsuz silahlı birləşməyə qoşulmaq məqsədilə 2011-ci ildə ölkəni tərk edərək qeyri-leqal yolla xarici dövlətin ərazisinə keçməklə orada fəaliyyət göstərən "Səlahəddin" dini ləqəbli şəxsin rəhbərlik etdiyi cinayətkar birliyə daxil olmuş və həmin silahlı qruplaşmanın tərkibində döyüş təlimlərində və əməliyyatlarında iştirak ediblər.

Faktla bağlı Mənsur Cumayev və Nəsir Cahangirov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunub və barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Adları qeyd olunan şəxslər istintaq zamanı törətdikləri cinayət əməlini etiraf edib və səmimi peşmançılıq hissi keçirdiklərini bildiriblər. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Virusun 4-cü dalğası gəlir?

***"Pandemiya dövründə koronavirusun bir neçə ştamı ilə rastlaşdıq. Hal-hazırda isə yayılma qabiliyyəti və daha çox ölüm riski yüksək olan bir variantla üz-üzə gəlmişik. Covid 19-un "Delta" variantı Hindistanda meydana gəldi və tez bir zamanda yayılaraq 100-dən çox ölkəni əhatə etdi.***

Hindistan variantında olan fərqli xüsusiyyətlər Hindistanın Qərbi Benqaye ştatında mütəxəssislər tərəfindən araşdırılmış və məlum olmuşdur ki, B1 167 mutagen kodu, B1 168 mutagen koduna keçmişdir və bunun görünən tərəfi ondan ibarətdir ki, niklogit zəncirində bütün amin turşular yerini dəyişmiş bu da həmin virusa fərqli xüsusiyyətlər vermişdir". Bu sözləri SİA-ya açıqlamasında həkim-infeksionist Xatirə Əliyeva deyib.



Onun sözlərinə görə, bu dəyişmənin təhlükəli tərəfi ondan ibarətdir ki, virus vaksinlərə qarşı davamlıdır: "Virusun məhz Hindistanda yayılmasının səbəbi ondan ibarətdir ki, insanlar burada çoxluq təşkil edir, yəni əhali sayı çoxdur. Həmçinin, buradakı insanların qidalanması və immuniteti də zəifdir. Xəstəliyin dalğavari gedişi onun haqqında proqnoz verilməsini çətinləşdirir".

Həkim sözlərinə belə davam edib: "Bu variantın təhlükəliliyi bir də ondan ibarətdir ki, immun sistemi zəif olan insanlar daha ağır keçirir. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, antiperal preparatlar üzərində klinik çalışmalar pandemiyanın qarşısını alacaq ən gözəl tədbirlərdən biridir".

***Ayşən Vəli***



# Kitabların insan həyatında rolu nədən ibarətdir?

Kitab insanların hisslərini, fikirlərini uzaqdakılara və sonra gələn nəsillərə çatdırmaq üçün çap olunmuş və ya yazılı vərəqlərin bir araya gəlməsi ilə kağız üzərində yaradılan əsərdir. Kitab insan üçün mənəvi qidadır. Kitab həm də oxuyanlara istiqamət vermək üçün də istifadə olunur.

Quranda tez-tez müxtəlif mənalarda rast gəlinən kitab sözü, Allah-Təalanın peyğəmbərlərinə göndərdiyi vəhylər mənasında da istifadə edilmişdir. İnsanların bildiklərini və öyrəndiklərini kitablara yazmalarının tarixi keçmişə dayanır.

### Kitab bir nəslin o biri nəslə qoyub getdiyi mənəvi vəsiyyətdir

Hər əsrdə lazımi dini və dünya bilikləri insanlara göndərilən peyğəmbərlər tərəfindən öyrədilmişdir. Kitablar bu məlumatların itməməsi üçün yazılmışdır.

İlk insan və ilk peyğəmbər olan Adəmdən bəri peyğəmbərlərə yüz dörd səmavi kitab göndərilib. Onlardan dördünün böyük kitablar olduğu bilinir: Tövrat, Zəbur, İncil və Quran.

Tövrat Həzrəti Musaya, Zəbur Həzrəti Davuda, İncil Həzrəti İsaya və Quran Həzrəti Məhəmmədə göndərilib. Bunlardan Quran heç bir hərfini dəyişdirmədən günümüzə çatmışdır. İlk dövrlərdə yazılan kitabların çoxu yanğın, sel, müharibə və s. fəlakətlər səbəbi ilə və ya insanların bir-birinə düşmənçiliyi nəticəsində məhv olub yoxa çıxıblar. Məlumdur ki, Çingiz xan nəvəsi Hülakü Bağdadı ələ keçirəndə min il əvvəl yazılmış kitablarla dolu kitabxanaları yandırdı.

Bu günə qədər elm və texnikanın inkişafı ilə paralel olaraq kitabda forma, xammal və məzmunda müxtəlif dəyişikliklər yarandı. Çap maşınının icad olunana qədər kitablar müəyyən bir qrupa müraciət edilirdi, ancaq mətbəə yarandıqdan sonra və çap maşınlarının kəşfindən sonra kitab yavaş -yavaş insanların gündəlik həyatına nüfuz etdi. Savadlılığın artması kitaba olan marağı və ehtiyacı da artırdı və bununla paralel olaraq kitab satışı sənayesi də mümkün qədər inkişaf etdi. Bu inkişafın gələcəkdə nə qədər irəliləyəcəyini proqnozlaşdırmaq çətindir.




### Kitablarım mənə çatacaq qədər böyük bir krallıqdır. V.Şekspir

Kitab formasındakı dəyişiklikləri tarixə baxaraq izləmək mümkündür. Kitablar istifadə olunan mətnə və materiala görə fərqli formalar almışdır. Kağız ixtira edilməzdən əvvəl yazıları metal, daş, ağac və gil lövhələrə həkk edirdilər. Şumer, Assuriya və Hititlər kül lövhələrinə yazdılar. Çinlilər ipək parçadan istifadə edirdilər. Misirdə papirus liflərindən istifadə olunurdu. Papirus yüngül, elastik, lakin davamlı material idi. İlk kitablar qədim misirlilərə aiddir. Bunlar Ölülər Kitabı adlanan dini əsərlərdir. Yazı papirusun yalnız bir tərəfində fırça ilə yazılmışdır. Eramızdan əvvəl VII əsrdə papirus Misirdən Yunanıstana, oradan da romalılara keçdi. Eramızdan əvvəl II əsrdə romalılar 15 m uzunluğunda və 15-30 sm enində olan papiruslardan istifadə etməyə başladılar. Romada kitabxanalar var idi, bəziləri ictimaiyyət üçün açıq idi və nadir kitablar toplanırdı.

Zamanla papirusun azalması, parçalanması və yanan bir maddənin olması, habelə ümumiyyətlə, Misirdə istehsal olunan papirusların ixracının qadağan edilməsi papirus istifadəsini sıradan çıxardı.

Kitabın inkişafında ikinci əhəmiyyətli addım, kağızın ortaya çıxması oldu. Kağız əsrlər boyu Çində və Türküstanda istifadə edilmişdir. Kağızın Çində ilk dəfə 105-ci ildə istifadə edildiyi təxmin edilir. Ancaq insanların çoxu bu kağızı bilmirdi. İpəkdən kağız da çox bahalı idi. Ancaq qısa müddətdə çoxlu və sürətli kitablar əldə etmək hələ mümkün deyildi. Kitablar kopyalanır və çoxalırdı.

Elmin inkişaf etməsi nəticəsində taxta çapı adlanan ksiloqrafiya üsulu sınandı. Bu çap texnikasında taxta lövhələrin üzərində mürəkkəblə çap olunmuşdur.

VIII əsrdə Çində istifadə edilən bu üsul Misir və Suriyada parça üzərində motivlər çap etmək üçün istifadə edildi, daha sonra kağızdan istifadə geniş yayıldıqdan sonra kitablardakı şəkilləri, sonra şəkli təkrarlamaq üçün istifadə edildi.



XV əsrdə bir neçə vərəqdən ibarət və yalnız bir tərəfi çap oluna bilən bukletlər nəşr olunurdu. Ksiloqrafik metodun qeyri -kafiliyi və böyük mətnlərə icazə verməməsi tipoqrafiyanın inkişafına səbəb oldu. Tipoqrafiyada məktublar söküldü və bir neçə dəfə istifadə edildi. Bu üsulla Qərbdə ilk kitab 1450 -ci ildə Almaniyada nəşr olundu. İlk kitab 1465 -ci ildə İtaliyada, 1477 -ci ildə Fransada nəşr olundu. XV əsrdə 35.000 kitabın nəşr olunduğu təxmin edilir. 1501-ci ildən əvvəl nəşr olunan əsərlər əlyazmalara çox bənzəyir.

Kitabın inkişafında üçüncü və ən vacib mərhələ çap maşınının kəşfi idi. Bu kəşflə günümüzə çatan kitabın inkişafı başladı. Çap maşını ilə kitab əldə etməkdə ən böyük maneə olan "yazı" problemi həll edildi. Qısa müddətdə çoxlu sayda kitab əldə etmək mümkün oldu. Çap və kağız sənayesindəki inkişaflarla paralel olaraq, xərclər azaldı və kitaba sahib olmaq daha asan oldu. Bu gün hər gün milyonlarla kitab çap olunur və bütün dünyada yayılır. Bu gün kitabsız heç bir yer qalmayıb. Kitab artıq geniş yayılmış və hər kəsin mülkünə çevrilmişdir. Kitab satışı dövrümüzdə bir sənayedir. Ancaq insanları zərərli kitablardan və nəşrlərdən qorumaq həll olunmamış bir problem olaraq qalır.

Kitablar mədəniyyətimizə, nəfsimizə, ruhumuza, həyatımıza və sivilizasiyamıza yol göstərən mənbələr olduğundan yaxşı yazarların əsərləri seçilməli və bu mövzuda lazımi səy göstərilməlidir.

Keçmişdə kitab haqqında danışarkən ilk növbədə dini və elmi əsərlər ağla gəlirdi. Kitabın çox bahalı və nadir bir obyekt olması, ona yalnız alimlər üçün ayrılmış bir obyekt kimi baxılırdı.

### Kitabın faydaları

Kitab oxumaq insanın nitqini düzəldir və söz ehtiyatını artırır.

Oxumaq vərdişinin yaranmasına səbəb olur və yazı yazma bacarıqlarını inkişaf etdirir.



Beyin funksiyalarını, yaddaşı yaxşılaşdırır və təhlil etmək, analiz aparmaq qabiliyyətinin inkişafına təkan verir.

Stressi azaldır.

Sürətli düşünmə və qərar vermək vərdişini yaradır.

"21 əsrin diktə etdiyi mövzulardan biri də yeni İnformasiya Kommunikasiya texnologiyalarıdır". Bunu SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, kitabxana.net portalının təsisçisi analitik-ekspert, yazıçı-kulturoloq Aydınxan Əbilov deyib.

Aydınxan Əbilov bildirib ki, İnformasiya Kommunkasiya Texnologiyaları həyatımızın bütün sahələrində olduğu kimi, mədəniyyətə, təhsilə, elmə ümumiyyətlə isə, maarifləmə və öyrənməyə təsiri var: "Bu baxımdan ötən əsrin axırlarından etibarən bütün dünyada internet inkişaf etməyə başladı və bu inkişaf sürətləndikcə özü ilə yeni texnologiyalar yeni verdişlər, bacarıqlar, virtual oxu və yazı mədəniyyətini gətirdi. Beləliklə, əvvəllər yalnız mətnlər internet resurslarına daxil edilirisə, daha sonra İKT-nin inkişafı ilə əlaqədar olaraq elektron kitab və elektron kitabxanalar yaranmağa, formalaşmağa, yeniləşməyə başladı. Bu ilk əvvəl Amerika birləşmiş ştatlarında baş verdi. Xüsusilə ABŞ- da ali məktəblərin kitabxanalarının elektron variantları internet resurslarında yerləşdirilməyə başladı. Bu sahə ayrıca bir sənaye kimi inkişaf edir. Bilirsiniz ki, E booklar deyilən elektron kitab oxuyucusu cihazları yarandı. Telefonlar, smartfonlar, planşetlər kütləvi şəkildə istehsal edilendən sonra artıq e book formatı biraz zəiflədi. Onlayn kitablar dövrümüzdə çox işləkdir. Dövrümüzdə bir çox işləri elektron variantda həyata keçirdirik. Biz elekton oxu və mütaliyə ilə məşğuluq. Həyatımızda klaviyaturadan istifadə etməklə fikirlərimizi bölüşür, sosiallaşırıq. Dünya elektron kitabxanaları və elektron nəşrləri son illər çox sürətlə inkişaf edib. Onların digər elekton daşıyıcılardan və ənənəvi kitablardan çox böyük fərqləri var. Kitablar müəyyən tirajla nəşr olunur bu isə bir çox oxucuya çatmır. Kitabların elektron variantı isə sayta və ya elektron kitabxanaya daxil olaraq həmin elektron kitabları əldə edə bilərik. Avropa və qərbin bir çox ölkələrində istənilən kitabı yükləmək üçün pul tələb olunur. Ənənəvi kitabları satışa çıxardan Amazon və digər satış portalları vasitəsi ilə pulla alınır. Biz elektron kitabları humanitar bir layihə olaraq pulsuz yüklənməsinə tərəfdarı kimi çıxış edirik. Başçılıq etdiyim yeni yazarlar və sənətçilər ictimai birliyinin kitabxana.net virtual elektron kitabxananın yaradıb. 2009-dan bu günə qədər 7-8 milyona yaxın elektron kitabxana və nəşrlər həmin portala daxil edilib. Açıq -ictimai kitabxana olaraq dünyanın müxtəlif ölkələrindən Azərbaycan ədəbiyyatı ilə maraqlanan insanların diqqətini cəlb edir. Bu insanların sərbəst elektron kitablardan istifadə etmək imkanları var. Biz ənənəvi kitabların mövcudluğunu da qəbul edirik. Lakin zaman öz diqtəsini edir. Çox güman ki, bu kitablar yaxın gələcəkdə olmayacaq. 21 əsr vizual və səsli mətnlərin paylaşıldığı bir əsr olacaq. Fikir versəniz şəkil, video, audio istifadə olunması ilə nəinki elektron həm də virtual kitablar, kitabxanalar yaradılır. Yalnız internetdə yerləşdirilir. Bunun sağlamlığımıza zərəri baxımından deyə bilərəm ki, dövrümüzdə mobil telefonlardan çox istifadə olunur. Kitab ilk növbədə mətndir, informasiyadır, bilgidir. Kitabın çap edilməsi ekologiyaya da zərər verir. Eyni zamanda, çap prosesi elektron formasına görə daha gec başa gəlir. Düşünürəm ki, bu texnologiya daha az zərər verir. Eyni zamanda, gələcəyin texnologiyasıdır. Nano texnologiyalar vasitəsilə kitablar birbaşa insan beyninə yeridiləcək".

***Qönçə Quliyeva***



# Ermənistanın "Minsk qrupu" hiyləsi

ANALİZ

***Erməni politoloqları cavabını bildikləri suallarla yenidən Ermənistan gündəmini işğal ediblər. Mövzu yenə həmsədrlərdir. Məlum olduğu kimi, Rusiyanın ATƏT-in Minsk qrupunda yeni təyin etdiyi həmsədr İqor Xovayev İrəvana səfər edib, baş nazirlə və çox təəccüblü də olsa, separatçıların ələbaşısı Arayik Harutunyanla görüşüb.***

Əcəba, Rusiyanın bu ikibaşlı oyununun arxasında bizim bilmədiyimiz nə dayana bilər? Bildiyimiz qədər, Rusiya son hadisələrdə mövqeyini bəlli etməklə özünü regional oyunların tərtibatçısı kimi təqdim edən Fransa və ABŞ-ı oyundankənar vəziyyətə salmadımı? Məgər Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun fransalı və amerikalı həmsədrlərini keçən il dekabrın 12-də qəbul edərkən bu qurumun artıq missiyasını başa vurduğunu bəyan etmədimi? Xatırlayırsınızsa, Azərbaycan Prezidenti həmsədrlərlə görüşündə bildirdi ki, "Minsk qrupunu ziyarətə dəvət etməmişəm. Amma Minsk qrupunun gəlmək istədiyini mənə xəbər verəndə dedim ki, gəlsinlər, mən də etiraz etmirəm. Ola bilsin ki, mənə deyəcəkləri bir şey var".

Bəs bu, həmsədr məsələsi nədir? Rusiyalı həmsədrin Ermənistan rəsmiləri ilə görüşünü başa düşmək olar. Çünki Paşinyanın və ümumiyyətlə, Ermənistan rəhbərlərinin "sonuncu gülədən istifadə"yə həvəsli görünməsi, yəni Minsk qrupunun fəaliyyətini genişləndirmək barədə həmsədr ölkələrə etdiyi müraciətlər bu görüşü reallaşdırmaq üçün bir bəhanə ola bilər. Amma 30 il əlini-əlinin üstünə qoyan, prosesi bir qarış yerindən tərpətməyi bacarmayan dölsüz bir qurumun bundan sonra nə isə etməsi heç inandırıcı görünmür. Bu, həmsədr ölkələrin regionda mövcudluğunu büruzə vermək istəyi də ola bilər. Hərçənd, bu, çox yersiz görünər. Artıq regional tərəfdaşlar dəyişib, Azərbaycanın maraqlarına cavab verən yeni kartlar masaya düzülüb. Beynəlxalq güclərin ənənəvi siyasi gedişləri təsir gücünü itirib.

Azərbaycanın ATƏT-in Minsk qrupunun ABŞ və Fransadan olan həmsədrlərinə qapını göstərməsi təsadüfi deyil. Rəsmi Bakı nə etdiyini, kimə haranı göstərdiyinin fərqindədir. Amma belə görünür ki, Vaşinqtin və Paris hələ də hansı işin altına girdiklərinin məsuliyyətini dərk etməyiblər, daha doğrusu dərk etmək istəməyiblər. Düşünüblər ki, yenicə müstəqilliyini qazanmış müsəlman ölkəsindən pay qoparmaq o qədər də çətin olmaz. Bunun üçün 2-3 gediş etmək lazımdır ki, Azərbaycan Qarabağın itirilməsi ilə barışmalı olsun. Bəli bu, mümkün idi, əgər hakimiyyətə Heydər Əliyev kimi dünya miqyaslı siyasətçi gəlməsəydi. Və ən əsası amerikalı və fransalı siyasət klanları Azərbaycan xalqının müdrikliyini hesaba almaq düşüncəsinə sahib deyildilər. Çünki, xalqımız öz xilaskarına nə vaxt müraciət edəcəyini çox yaxşı hesablamışdı və bunu etdi. Ulu Öndərin hakimiyyətə qayıdışı Qarabağı Azərbaycandan qoparmaq istəyənlərin planlarını alt-üst etdi. Ermənistana ərazi qazandırmaq vədini verən dövlət və təşkilatlar taktikanı dəyişməli oldular. Konqresin "907-ci düzəliş"i də, müxtəlif çaplı embarqolar da, investisiyaların qoyuluşunda yaradılmış süni əngəllər də, insan haqları ilə bağlı basqılar da, Ermənistana para yardımları da, pulsuz verilən silahlar da Azərbaycanı təslimçilik masasına oturtmaq üçün edilən cəhdlər idi. Bəli, bunu Ermənistanla Azərbaycan arasında baş vermiş münaqişədə kimin haqlı, kimin haqsız olduğunu üzə çıxarmaq üçün "ağsaqqal", beynlxalq arbitr kimi seçilmiş həmsədr ölkələr - ABŞ, Rusiya və Fransa edirdi. Onların sayəsində Ermənistanın işğalçılıq siyasəti 30 il sürdü.

İndi vəziyyət 180 dərəcə həmsədrlərin əlehinə yönəlib, yaxud yönləndirilib. Artıq Ermənistanda da ATƏT-in təsis etdiyi Minsk qrupuna qarşı kampaniya aparılır. Ermənilər həmsədrləri 30 il bundan əvvəl verdikləri vədi yerinə yetirməməkdə suçlayır, beynəlxalq təşkilatları isə Qarabağın müstəqilliyinin tanınması üçün başlatdıqları təbliğata hüquqi qiymət verməməkdə ittiham edirlər. Ona görə də rusiyalı həmsədrin İrəvana səfərini müzakirəyə çıxaran erməni politoloqlar Baş nazir Paşinyana həmsədrlərdən imtina etməyi məsləhət görürlər. Necə ki, bunu Azərbaycan Prezidenti etdi.

Rusiya prezidenti Putini də suçlayan erməni politoloqlar: "Biz uşaq deyilik və başa düşürük ki, Putin başqa cür qərar versəydi, 44 günlük müharibənin nəticələri başqa cür olardı. Paşinyan və Qərbdəki erməni diasporu Moskva, Paris və Vaşinqtonun iştirakı ilə aparılan danışıqlara əsaslanaraq qaydalarla oynamağa çalışarkən, Azərbaycan və Rusiya rəhbərləri Ermənistanı cəzalandırmaq və parçalamaq barədə razılığa gəldilər. Rusiya Paşinyanı itaətsizliyinə, Kremlin əlaltılarını və kuklalarını siyasi arenadan uzaqlaşdırdığına, ümumiyyətlə, Putinin istəklərinə zidd olaraq inqilab etdiyinə görə cəzalandırdı", deyə Kremlə qarşı çıxmalarının səbəbini izah ediblər.

Erməni analitik Tevos Arşakyan yazır: "Erməni cəmiyyəti dəqiq bilir ki, son müharibə Paşinyanın və komandasının gözünü açmayıb. O müharibədə drijor çubuğunun kimdə olduğunu hələ də anlamayıb. Bəli, Paşinyan Əliyev deyil. Əliyevə heç yaxın da deyil. Paşinyanın Əliyevlə fransız və amerikalı həmsədrlər kimi ATƏT-in Minsk qrupunun rusiyalı həmsədri İqor Xovaevə qapını göstərməyə belə cəsarəti çatmır. Əksinə, bazar ertəsi onunla Qarabağ probleminin həll yollarını müzakirə etdi. Görüşdə Qarabağ probleminin həlli üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinin əhəmiyyəti vurğulandı. Rusiya nümayəndəsi ilə Qarabağ münaqişəsinin hansı həlli yolundan danışa bilərsiniz? "Artsax"ın böyük hissəsini verən Rusiya iləmi? Axı, nəzarətimizdəki ərazilərin Azərbaycana verildiyi üçtərəfli bəyanatın mətnini tərtib edən Putin idi. Öz əliylə Ermənistan Silahlı Qüvvələrinin Qarabağdan çıxarılması lazım olduğunu yazan Putin idi. Bəs indi rusiyalı həmsədrlə hansı razılaşmadan danışa bilərik? Düşünürəm ki, Paşinyan Rusiyadan asılı olmaqdan qurtulub özünü daha müstəqil aparsaydı müharibədən sonra düşdüyümüz rüsvayçı vəziyyətdən çıxa bilərdik.

Bakı hər dəfə Rusiya əleyhinə demarşlar edir və bundan sonra Moskvadan müəyyən güzəştlər qoparır. Bəlkə Paşinyan da ən azı bir dəfə açıq şəkildə Rusiyaya qarşı hiyləgər davranış göstərsin. Məsələn, ATƏT-in Minsk Qrupunun rusiyalı həmsədri İqor Xovayevi qəbul etməkdən qətiyyətlə imtina etsin. Rusiya buna görə çətin ki, İrəvana not göndərsin. Lakin Xovayevi qəbul etməyən Paşinyan həm Rusiyaya, həm də bütün dünyaya, ən əsası isə öz xalqına göstərəcəkdi ki, hələ də qürur və ləyaqətimiz var, Moskvanın əlində itaətkar alət deyilik. Ancaq təəssüf ki, həm Xovaevin, həm də Nikol Vovayeviçin üzündəki gülüş bizi günahkar ölkə olduğumuz düşüncəsinə qaytardı".

Bəli, ATƏT-in Minsk qrupundan hər kəs narazıdır, keçmiş qalib də, məğlub da, indiki qalib də, məğlub da. Çünki Minsk qrupuna həmsədrlik edənlərin ədalətdən xəbərləri yoxdur. Onları dünyanın düzəni yox, yalnız düzənsizliyi daha çox maraqlandırır. Yalnız xaosda onların ovu məhsuldar olur.

***V.VƏLİYEV***

---

# "Füzuli Hava Limanı Prezidentin strateji məqsədlərə yönəlmiş layihələrindən biridir"



EKSPERT ŞƏRH ETDİ

"Azərbaycanın erməni işğalından azad olunmuş ərazilərində yenidənqurma, bərpa işləri və ən müxtəlif infrastruktur obyektlərinin yaradılması ölkəmizin gücünü dünyada nümayiş etdirməkdən əlavə Azərbaycan torpaqlarını, xüsusilə də Ermənistan və digər dövlətlərlə sərhədlərdə yerləşən ərazilərimizin təhlükəsizliyinin artırılması istiqamətində sistemli dövlət işinin aparıldığının bariz nümunəsidir. Bu nöqteyi-nəzərdən Azərbaycan Prezidentinin işğaldan azad edilmiş bölgələrə səfərləri hər dəfə müəyyən yenilik edilməsi ilə xarakterizə olunur". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, bu səfərlər müəyyən infrastruktur obyektlərinin tikintisinin və istifadəyə verilməsinin başlanğıcı olur: "Cənab Prezidentin sonuncu Qarabağ səfərində Füzuli aeroportunun istifadəyə verilməsi bu kontekstdə xüsusi əhəmiyyətli və strateji təsiri olan bir hadisə kimi dəyərləndirilə bilər. Füzuli Hava Limanının açılışı, 8 ayda bu cür böyük layihənin başa çatdırılması özlüyündə təqdirəlayiq hadisədir. Hava limanının işğaldan azad olunmuş, eyni zamanda İranla sərhəd ərazidə yerləşməsi cəhətdən xüsusi dəyərləndirilməlidir. Bir vaxtlar Qarabağ zonasında yeganə aeroport olan Xocalı Hava Limanı xüsusi bir obyekt kimi nəzərdən keçirilirdi. Ermənilər var qüvvələri ilə bu əraziləri işğal edərkən ilk öncə Xocalı aeroportuna hakim olmaq istəyirdilər. O zaman haqlı olaraq erməni istilaçılarında belə bir rəy vardı ki, Xocalı aeroportuna hakim olan qüvvə bütünlüklə Qarabağa hakim olmaq imkanını əlində tutacaq. Həqiqətən, Sovet hakimiyyəti illərində Qarabağ üçün Xocalıda yeganə hava limanının olması bu bölgələrin müdafiə və təhlükəsizlik işini xeyli dərəcədə zəiflədirdi".

A.Quliyev vurğulayıb ki, Azərbaycan Qarabağ ətrafında bir növ onu mühasirəyə ala biləcək şəkildə hava limanlarının tikintisinə başlayıb: "Bu gün Füzulidəki hava limanının, yaxın zamanda Zəngilan və Laçında, hətta Kəlbəcərdə aeroportların istifadəyə verilməsi Ermənistanla bütün sərhəd boyu, eləcə də Qarabağ ərazilərində müxtəlif hava limanlarının yaradılması kimi bir müdafiə və təhlükəsizlik prosesinin tərkib hissəsi olaraq qiymətləndirilə bilər. Bu nöqteyi-nəzərdən Füzulidə aeroportun istifadəyə verilməsi həm Azərbaycanın strateji məqsədlərinə uyğun, həm nəqliyyat obyekti olaraq xeyli dərəcədə dəyərli, həm də Azərbaycan vətəndaşlarının bütünlüklə Qarabağa və işğaldan azad edilmiş ərazilərimizlə təmasların intensivləşməsində öz rolunu oynaya bilər. Füzuli aeroportunun tikilməsi Azərbaycan dövlət başçısının strateji məqsədlərə yönəlmiş layihələrindən biridir və bu layihə Azərbaycan dövlətinin işğaldan azad edilmiş bütün ərazilərimizin Ermənistanla sərhəddə müdafiə və təhlükəsizlik işinin daha da etibarlı səviyyəyə qaldırılması, eləcə də Qarabağda separatizm hərəkətlərinin Azərbaycan dövlətçiliyinin mənafeləri ilə bir araya sığmayan gələcək cəhdlərin mümkün qədər neytrallaşdırılması və mühasirəyə alınmasına hesablanıb".

***Aysel Məmmədova***

---

# Dövlət Komissiyası Cəmil Babayevin qaytarılması ilə bağlı məlumat yaydı

Ağdərə şəhəri ərazisində saxlanılmış Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Cəmil Natiq oğlu Azərbaycana qaytarılıb.




Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından SİA-ya verilən məlumata görə, Azərbaycan Respublikasının Prezidenti, Rusiya Federasiyasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatına uyğun olaraq, 14 iyul 2021-ci ildə Azərbaycan hərbçiləri tərəfindən Laçın rayonu ərazisində saxlanılmış Ermənistan Respublikasının vətəndaşları - Gümrü şəhər sakini, hərbi qulluqçu, 27.10.1981-ci il təvəllüdlü Nalbandyan Artur Hayki və Gorus rayon sakini, hərbi hissədə sürücü işləyən mülki şəxs 07.08.1963-cü il təvəllüdlü Torozyan Aramais Qrati azad edilərək Rusiya sülhməramlılarının vasitəçiliyi ilə 7 sentyabr 2021-ci ildə Ermənistana təhvil verilib.

Eyni zamanda, 25 avqust 2021-ci ildə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Ağdərə şəhəri ərazisində saxlanılmış Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Babayev Cəmil Natiq oğlu Azərbaycana qaytarılıb.

# İdeal valideyn kimdir?

**Uşağın inkişafında çox əhəmiyyətli bir yerə sahib olan ata, həm qız, həm də oğlan üçün güvən simvoludur. Ata uşaqların şəxsiyyətindən və cinsi kimliyindən, həyatlarının sonrakı dövründə oynayacaqları sosial rollara qədər bir çox cəhətdən həlledicidir. Məsələ ilə bağlı SİA araşdırma aparıb. Mütəxəssislər ideal ata olmağın 10 qaydasını sıralayıblar.**

Atanın uşaq üçün xüsusi önəm daşıdığını dilə gətirən mütəxəssislər, uşağın inkişafında ananın ön planda olduğu görünsə də, "Atalar da uşaqları ilə çox güclü sevgi və şəfqət bağları inkişaf etdirir. Xüsusilə oğlanlar üçün ata şəxsiyyət inkişafında özünü tanıdığı bir modeldir. Ata güvənin simvoludur. Sonrakı illərdə oğlan və qızların cinsi kimliklərinin inkişafında ata ilə əlaqənin də rolu var. Uşaq cinsi kimliyini tanımaq üçün atasını təqlid edir və nümunə götürür. Qızlar üçün, ata modeli əks cinsin tanınması və əks cinsə münasibətinə dair ipuçları verir.

Ata, ailənin cəmiyyətlə əlaqələrini quran bir körpüdür. Bu səbəbdən ata uşağın sosial inkişafında və özünə inam qazanmasında əhəmiyyətli rol oynayır. Atası ilə sağlam münasibət quran, atasından sevgi və diqqət alan uşağın özü ilə barışdığı, məktəbdə müvəffəqiyyətli olduğu, dostları ilə uyğunlaşdığı və liderlik xüsusiyyətlərinə sahib olduğu müşahidə edilir.

Yüksək muxtariyyət hissi olan uşaqlar atası ilə güc qarşıdurmasına girir, cavab verir və etiraz edir. Atasının istədiyi şəxsiyyətin əksini mənimsəyərək atadan qisas alır. Müstəqillik hissi olmayan və hisslərini boğan uşaq həmişə fədakarlıq edir. Duyğularını boğur və psixi sağlamlığı pisləşir. Uşağına kifayət qədər diqqət, sevgi göstərməyən və emosional olaraq laqeyd yanaşan avtoritar atanın övladında cinsiyyət kimliyi pozğunluqları, özünə inamsızlıq və qəzəbli bir şəxsiyyət meydana gələ bilər. Uşağın özünü inkişaf etdirmə qabiliyyəti varsa və cəmiyyətlə yaxşı ünsiyyət qurarsa, ailənin etdiyi səhvləri düzəldərək bunun öhdəsindən gələ bilər.

Qızların həyatına ilk girən kişinin ata olduğunu ifadə edən ziyalılar, ata ilə qızı arasındakı münasibət gələcəkdə uşağın kişi-qadın münasibətlərinə olan baxışını da təsir edir. Onlar nəinki kişilərlə tanış olurlar, həm də necə həyat yoldaşı seçəcəkləri barədə fikirlərə sahibdirlər. Uşağın sağlam zehni inkişafında qızın atası ilə münasibətlərinin keyfiyyəti böyük rol oynayır. Bir atanın varlığı və uşağı ilə əlaqəsi buna əhəmiyyətli təsir göstərir. Zəif ata-qız münasibətləri olan uşaqların depressiya, yemək pozğunluqları, alkoqol və maddə istifadəsi kimi riskli davranışlarla məşğul olma ehtimalı daha yüksəkdir.

Ata-oğul münasibətlərində ən əhəmiyyətli qayda, bir oğlan uşağı böyüdərkən aynaya baxdığını xatırlamaqdır. Oğlan atanın güzgüsüdür. Buna görə ata ilk növbədə davranışına diqqət yetirməlidir. Atanın oğlu ilə münasibətlərində həmişə müəyyən rəqabət var. Atanın diqqət yetirməsi lazım olan şey, bu güc mübarizələrini şəxsən qəbul etməmək və uşağın inkişaf dövrünə uyğun hərəkət etməkdir. Ata-oğul münasibətlərində uşağına empatiya qurması, duyğularını idarə etməsinə kömək etməsi, qəzəbini idarə etməsi və düzgün istiqamətləndirə bilməsi çox vacibdir.

İdeal ata olmaq üçün 10 qayda:

**1 - Birlikdə vaxt keçirin**

Birlikdə vaxt keçirməyi sadəcə televizora baxmaq və söhbət etmək kimi düşünməyin. Hekayələr danışın, oyunlar oynayın. Birlikdə edə biləcəyiniz hobbiləriniz olsun. Həftə sonlarını birlikdə keçirə biləcəyiniz proqramlar hazırlayın. Əlbəttə ki, uşağınızın burada nəyi bəyənə biləcəyini düşünün. Yaş fərqindən asılı olmayaraq aranızda paylaşım çox vacibdir.

**2 - Uşağınız üçün əsl model olun**

Kitab oxumağı vərdiş halına gətirmək istəyirsinizsə, kitabları da oxumalısınız. Alkoqol və siqaretdən istifadə etməməklə, spirt və siqaretin zərərlərini izah etməklə bu mövzuda doğru nümunə ola bilərsiniz.

**3 - Sevgi ilə nizam - intizam təmin edin**

Bu mövzuda sakit və ədalətli olun. Uşaqlara lazım olan rəhbərlik və nizam - intizam cəza deyil. Bunlar müəyyən məhdudiyyətlər daxilində verilməlidir. Uşaqlarınıza davranışlarının nəticələrini göstərin və müsbət davranışlarını mükafatlandırın.

**4 - Uşağınızın özünə güvənməsinə kömək edin**

Ona sevildiyini və dəyər verdiyini hiss etdirin. Onu tərifləyin, onunla fəxr etdiyinizi bildirin. Səhv və səhvlər etdiyi zaman üzünə vurmayın, həqiqəti öyrətmək üçün yanında olun. Başqalarının qarşısında tənqid etməyin. Müsbət tərəfləri təşviq edin və vurğulayın.

**5 - Uşaqların sevginizə ehtiyacı var və bunu hiss etdirirlər**

Sevginizi sözlə göstərməklə yanaşı, fiziki yaxınlıq da çox vacibdir. Fiziki təmas qurun, onu qucaqlayın. Həssaslıqla toxunmaq uşaqların həm fiziki, həm də psixoloji inkişafı üçün vacibdir.

**6 - Uşağınızın anasına hörmətlə yanaşın və ona sevgi ilə davranın**

Uşağınızın gözü qarşısında mübahisə və dava etməyin. Unutmayın ki, xoşbəxt ananın övladları sağlam və xoşbəxtdirlər.

**7 - Qoyun sizinlə tanış olsun**

Məsələn işə götürək. Nə etdiyinizi, kimlə işlədiyinizi, hansı təcrübəyə sahib olduğunuzu və məsuliyyətlərinizi izah edin.

**8 - Səbirli olun**

Öyrənmə hər bir uşaq üçün ayrı bir prosesdir. Öyrətmək çətin olsa da, səbirlə yanaş, ruhdan düşmə.

**9 - Özünüzü emosional olaraq idarə edə bilmirsinizsə və sözlə və fiziki təcavüz göstərə bilmirsinizsə, peşəkar yardım alın**

Uşağınız və həyat yoldaşınız bu cür davranışlara məruz qalmamalıdır. Bu vəziyyət uşağın psixologiyasında dərin yaralar yaradır.

**10 - Atanın işi heç vaxt bitmir**

Uşaqlar böyüdükdə və evdən çıxmağın vaxtı olsa belə, yenə də atalarının məsləhətinə və dəstəyinə ehtiyac duyurlar. Atalar həyatlarının hər mərhələsində, evlənib ayrı bir ailə qursalar belə, uşaqlarının yanındadır.

Məsələ ilə bağlı psixoloq Mahuxanım Teymurova da münasibət bildirib: "Xalqın, cəmiyyətin güclü, sağlam olması üçün ilk növbədə yaxşı bir bünövrəyə sahib ailələr olmalıdır. Ailənin bünövrəsi də biz qadın və kişilər tərəfindən qoyulur. Bizlərin psixologiyası, dünyagörüşü, maddiyyatı yerində olarsa, bu zaman, yetişdirəcəyimiz fərdlər üçün də yaxşı bir gələcək hazırlamış olarıq".

**Bəs necə yaxşı ata olunar?**

"Yaxşı ata olmaq, yaxşı bir həyat yoldaşı olmaqdan keçir. Yaxşı bir həyat yoldaşı olmaq hər bir evlilikdə önəmlidir. Evlilikdə tam olaraq ortaqlıq olmalıdır. Qadın və kişi bir-birlərinə hörmətlə, dəstəkləyici, dürüst, sevgi dolu yanaşmalıdırlar".







Valideyn olmaq dünyanın ən həyəcanlı, bənzərsiz və dəyərli təcrübəsidir. Bütün bu müsbət duyğulara əlavə olaraq, valideynlər narahatlıq hiss edirlər. Hər bir valideyn övladının sağlam böyüməsini və inkişaf etməsini istəyir. Ancaq bunu əldə etmək üçün hər iki valideyn mütləq səy göstərməlidir. Ailədaxili münasibətdə atanın varlığı çox vacibdir. Bu ana və uşaq arasındakı əlaqənin düzgün inkişaf etməsi üçün zəmin yaradır. Ana-uşaq münasibətlərində olduğu kimi, ata-uşaq münasibətlərinin təməli də ilk illərdə qoyulur. Ata-uşaq münasibətlərini erkən yaşayan uşaq daha təhlükəsiz, daha sosial və xarici dünyaya qarşı daha müstəqil olur. Uşağın gözündə ata həmişə xarici dünyanın simvoludur. Atanın sayəsində uşaqlar anadan başqa bir modelin olduğunu və fərqli davranışların öyrənmələrin lazım olduğunu,öyrənirlər. Uşaq atası ilə münasibətlərində, xüsusən də anası olmadan özünü təhlükəsiz və rahat hiss etməlidir. Güclü və sevən bir ata, uşaq üçün etibar mənbəyidir".



"Araşdırmalarda uşaqların, xüsusən də atalarından aldıqları sevgi və xoşbəxtliklə, həyata daha pozitiv və xoşbəxt baxdıqları, daha az zərərli davrandıqları, insanlara qarşı daha çox sevgili olduqları və dostları ilə daha çox ahəngdar olduqları müşahidə edilmişdir. Yaxşı ata olmaq üçün ilk növbədə övladlarınızla vaxt keçirməlisiniz. Onlarla söhbət etməli, oyunlar oynamalısınız. Onlara qarşı sevgi dolu olun və onları dinləyin. Heç zaman onlara qarşı önyarğılı olmayın".

Araşdırma mövzusu ilə bağlı şəhər sakinləri arasında sorğu keçirərək onların da fikirlərini öyrəndik:

Şəhər sakini Aytac Ali: "Məncə, ümumiyyətlə ölkədə evlənmək istəyən şəxslər bu barədə xüsusi testdən keçməlidir. Çünki son hadisələr, yəni valideynlərin uşaqlarını çölə atması, onları qətlə yetirməsi və s. bunun kimi hadisələr göstərir ki, valideyn olmaq məsələsi artıq tənzimlənməlidir. Sualın özünə gəldikdə isə məncə, bu şəxsi keyfiyyətdir. Yaxşı ata olmaq üçün ilk növbədə yaxşı insan olmağı bacarmaq lazımdır. Digər tərəfdən isə, təbii ki, bu prosesə psixoloji cəhətdən hazır olmaq lazımdır. "Mən uşaq istəyirəm" deməklə uşağa baxa bilmək ayrı məsələlərdir. Ona görə də bu mövzuda uzunca düşünmək, sonra qərar vermək yaxşı olar".

Şəhər sakini Türkan Məmmədova: "Kişilər qadınlara nisbətən hər zaman evdə "Güc simvolu" kimidir. Atamız bir çox kəs qorxduğumuz nüanslardan qoruyucu qəhrəmanımıza çevrilib. Bəs, "hər kəsmi ata ola bilər?" sualı bu günümüzdə çox düşündürür. Çünki hazırda o qədər hadisələrin şahidi oluruq ki, dünyaya övlad gətirərkən çox düşünməli olursan. Tərbiyə vermək, övlada doğru yolu göstərmək hər iki valideyn arasında bölüşdürülür. Zaman ən gözəl əlacdır buna. Sevdiklərinə zaman ayıra bilən, hər zaman dəstək çıxan, səhv edəndə övladı, onu bu səhvi etməməsi üçün yanında olan kişi əsl atadır. Övladına sahib çıxmağı, ona bütün qayğını, doğrunu yalnışı göstərə biləcək potensialda olduğunu bilən bir kəs ata olmağa layiqdir. Bəzən dəliqanlı olurlar övlad şirin gəlir, olur sonra baxmırlar. Unutmamaq lazımdır ailə oyun deyil! Uşaq oyun deyil! Həyat enişli-yoxuşlu olur o uşağı güclü edən isə o çətin yollardan doğru keçməyə kömək edən valideynləri olmalıdır. Bunu düşünərək addım atmaq lazımdır...".

Şəhər sakini Xanım Cəfərquliyeva: "Yaxşı ata olmaq üçün insan ilk növbədə öz atalıq borcunu, vəzifəsini bilməlidir. Uşaqların davranışında, tərbiyəsində xoşbəxtliyində ananın rolu olduğu qədər, atanın da rolu böyükdür. Valideynlərin, "Kişinin işi pul qazanmaqdır, qadının işi ev və ailənin qayğısına qalmaqdır" fikri ilə həm razıyam, həm də narazıyam. Övladların gələcəyi üçün ata çalışmalıdır, amma nə qədər çalışsa da ata öz sevgisini, qayğısını əksik etməməlidir. Ancaq işə köklənib övladlarıyla münasibət qura bilməyən atalar var. Nəinki sevgi qayğı göstərmək, bu cür ataları "yaxşı ata" hesab etmirəm. Ümumi olaraq desəm "yaxşı ata" həm gələcəyi üçün çalışan əmək göstərən, həm qayğı həm sevgi verən, münasibət qurmağı bacaran atalardır".

Şəhər sakini Zərintac Məmmədzadə: "Ümumiyyətlə valideyn olmaq böyük məsuliyyət tələb edir. Bu sualınıza belə cavab verə bilərəm ki, olduqca mükəmməl atalar da var. Lakin, ata olmağı bacarmayanlar da kifayət qədərdir. Bir kateqoriya da var ki, yaxşı ata olmaq istəyir amma ola bilmir. Səbəblər: cahillik, qorxu - yəni övladlarını hər şeydən qorumaq üçün əlindən gələni edirlər, ehtiyatlanırlar. Həmin atalar düzgün düşünmək üçün öz üzərində həm psixoloji, həm də digər formalarda çalışmalıdır. Ümumiyyətlə, valideyn - ata adını qazanmadan öncə psixoloji dəstək görməlidirlər, valideynlərlə bağlı çoxlu kurslar təşkil edilsə, maarifləndirici müzakirələr aparılsa yaxşı atalarımızın sayı üstünlük təşkil edəcək. Bunu hamımız bilirik ki, bəzi insanlar fikirləşir ki, evlilik, valideyn olmaq rahatdır. Amma belə deyil axı... Bu mərhələlərə yalnız özlərini hazırladıqdan sonra keçmək mümkündür".

Şəhər sakini Fatimə Əzizli: "Dünyaya övlad götürməklə valideyn statusuna sahib olmaq kifayət etmir. Əsl ata övladına daima dəstək olmalı, varlığını hiss etdirməlidir. Dəyər verməlidir, övladının hər anına şahid olmalıdır. İstər şəxsi həyatında, istər təhsil həyatında övlad atasını yanında görməlidir. Oğlan uşaqları daima atalarına baxıb örnək alırlar, nə qədər düzgün atalara sahib olarsa təmelləri düzgün qoyular və ailələrinə bağlı olarlar".

Şəhər sakini Səbinə Hüseynli: "Ümumiyyətlə bir insanın həm yaxşı biri kimi inkişaf etməsi, həm də yaxşı valideyn ola bilməsi onun içində olan və öz ailəsindən ona sevgiylə bərabər ötürülən mərhəmət hissi ilə bağlıdır. Qadınlarda uşaq ilə bağlılıq hamiləliyin ilk aylarında yaranırsa, bu kişilərdə daha gec baş verir. Buna görə də uşaq doğulanda qadınlar valideyn olmanın məshuliyyətini daha tez dərk edirlər. Bir kişinin yaxşı ata ola bilməsi isə onun öz atası ilə arasında olan bağla əlaqədardır. Yəni, kişi öz atasından nə qədər çox sevgi və mərhəmət görürsə, uşağına qarşı da o cür olur. Məsələn, çox yaxından tanıdığım biri, deyir ki, "biz uşaq olanda, atam əgər toya gedirdisə evə də ət alırdı ki, mən toyda ət yeyəndə, siz də evdə yeyin". Bu sözləri deyən uşağın özü də indi böyüyüb, ən az öz atası qədər yaxşı bir ata olub".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Təhsil nazirinin brifinqindən çıxan nəticələrə - PAYTAXT SAKİNLƏRİNİN BAXIŞI - SORĞU





**Paytaxt sakini Vaqif Həsənov:** "İl yarımdır ki, hər kəs pandemiya dövründən çox əziyyət çəkdi. Həmçinin onlayn üsulla dərs keçən müəllimlər, tələbələr çox əziyyət çəkib. Ona görə də, düşünürəm ki, ənənəvi təhsilə qayıtmaq olduqca vacibdir. Sadəcə olaraq dərslər təşkil olunarkən müəyyən ara məsafəsinin gözlənilməsi, sanitar-gigiyenik qaydalara əməl olunması məsələsi diqqətdə saxlanılmalıdır. Bu və ya bu kimi tədbirlər çərçivəsində dərslərin ənənvi qaydada keçirilməsinin tərəfdarıyam".



**Paytaxt sakini Fidan Kəngərlinski:** "Dərslərin ənənəvi qaydada keçirilməsi çox yaxşı haldır. Çünki onlayn üsulla bizim heç bir anlayışımız olmur. Canlı dərslərin yerini heç bir şey verə bilməz. Mən 10-cu sinif şagirdiyəm. Məktəblərin ənənəvi üsulla keçirilməsinə çox şad oldum. Düşünürəm ki, təhsil naziri Emin Əmrullayev çox düzgün bir qərar verdi. Onun atdığı bu addım çox düzgün addımdır".



**Paytaxt sakini Sürayə Həsənova:** "Dərslərin ənənəvi qaydaya qayıtması çox müsbət bir haldır. Çünki ənənəvi qaydada keçirilən dərs onlayn formada keçirilən dərsdən qat-qat daha keyfiyyətlidir. Düşünürəm ki, pandemiyanın olmasına baxmayaraq, müəyyən sanitar-gigiyenik qaydalara riayət etməklə dərslərin keçirilməsində heç bir problem görmürəm".



**Paytaxt sakini Əbdül Əliyev:** "Artıq bir ildən çoxdur ki, dərslər normal qaydada keçirilmir. Bunun da bir çox mənfi cəhətləri var. Elə insan var ki, evində internet yoxdur və dərsə qoşula bilmir. Belə olduqda həmin insan dərsdən kənar qalır. Yəni biz bu son 1 ildə onlayn təhsilin nəticəsini gördük. Onlayn təhsil sistemi ənənəvi təhsilin yerini tutmur. Buna görə də, düşünürəm ki, ənənəvi formada dərslərin təşkil olunması çox müsbət haldır".



**Paytaxt sakini Məhəmməd Məmmədov:** "Dərslərin açılmasına çox sevinirəm. Çünki uzun müddətdir ki, sinif yoldaşlarımı, dostlarımı, müəllimlərimi görmürəm. Bundan başqa onlayn şəkildə dərslərin keçirilməsi elə də yaxşı deyil. Ona görə də, məktəblərin açılmasına çox sevinirəm".



**Paytaxt sakini Məhəmməd Ağakişiyev:** "Mən 6-cı sinifdə oxuyuram. Pandemiya dövrünün böyük bir hissəsini demək olar ki, evdə keçirdik. Onlayn təhsil o qədər də yaxşı deyil. Çünki elə vaxt olurdu ki, dərsə qoşula bilmirdik. Bir çoxlarımızda internet problemi olurdu. Ona görə də, məktəblərin açılmasına çox sevinirəm".



**Paytaxt sakini Nərmin Mənsurova:** "Pandemiya dövründə, yoluxma sayının bu qədər artdığı bir dövrdə dərslərin açılması məncə, düzgün deyil. Çünki bir sıra qapanmalara gedirik, vaksinasiya oluruq. Nəyə görə? Virus azalsın deyə. Orta məktəblər, universitetlər həftədə 5 gün fəaliyyət göstərəcək. Belə olduqda avtobus və nəqliyyatda sıxlıq müşahidə olunacaq. Ona görə də, dərslərin açılması heç də düzgün qərar deyil".



**Paytaxt sakini Elməddin Hüseynli:** "Dərslər onlayn formada davam etsəydi, daha yaxşı ola bilərdi. Çünki elə tələbələr var ki, bölgələrdən gəlir. Pandemiya dövründə yoluxma sayını nəzərə alsaq, universitetlərin və orta məktəblərin açılması vəziyyəti daha da pisləşdirə bilər".



**Paytaxt sakini İlkin Həsənov:** "Fikrimcə, ümumiyyətlə təhsili dondurmaq cəmiyyəti müəyyən qədər geri salır. Cəmiyyətimiz onlayn təhsil formasına hələ də hazır deyil. Onlayn təhsillə bağlı sırf mükəmməl bir model ümumiyyətlə dünya praktikasında hələ də yoxdur. Ona görə də, təhsilin ənənəvi formaya qayıtması çox yaxşı haldır".

***Arzu Qurbanzadə***

# "Sumqayıtda yaradılan sənaye parkı qeyri-neft ixracına xüsusi töhfə verir"

## *İqtisadçı-ekspert şərh etdi*

Sumqayıt şəhərində istifadəyə verilən yeni müəssisələr Azərbaycanın qeyri-neft ixracatının artırılması baxımından çox vacibdir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Millət vəkilinin sözlərinə görə, nəzərə almaq lazımdır ki, xüsusən də Azərbaycan 2021-ci ildə son aylar qeyri-neft ixracatını artırıb.

"2021-ci ilin son səkkiz ayında qeyri-neft ixracatında 37 faiz artım qeydə alınıb. 2021-ci ildə Azərbaycanın qeyri-neft ixracatının 2 milyard dollardan çox olacağı gözlənilir və əslində qeyri-neft sektoruna diqqət yetirsək görərik ki, bu ixracatın artmasında sənaye müəssisələrinin və xüsusən də, o cümlədən Sumqayıtda fəaliyyət göstərən sənaye müəssisələrinin xüsusi töhfəsi var. Sənaye müəssisələri bu baxımdan vacibdir. Çünki bu, daxili bazarda tələbin ödənilməsi və ixrac imkanının artırılmasına imkan verir. Sumqayıt da təbii ki, bu kontekstdən Azərbaycan iqtisadiyyatı və Azərbaycanın ixracı baxımından vacib şəhərlərdəndir və Sumqayıtda yaradılan sənaye parkı bütövlükdə Azərbaycanın qeyri-neft ixracına xüsusi töhvə verir. Bu baxımdan cənab Prezidentin iştirakı ilə həyata keçirilən son açılışlar, o cümlədən yeni müəssisələrin istifadəyə verilməsi Azərbaycanın qeyri-neft ixracatına xüsusi töhfə verəcək və gözlənilir ki, Azərbaycanın ümumi ixracatında, o cümlədən, qeyri-neft ixracatında



2021-ci ildə növbəti aylarda da artımlar baş verəcək", deyə Vüqar Bayramov bildirib.

***İnam Hacıyev***

***Türkiyə və Azərbaycan dövlətləri daima bir-birinə dəstək olaraq bütün dünyaya əsl qardaşlıq, dostluq, müttəfiqlik və "bir millət, iki dövlət" necə olmalıdır nümunəsi göstərirlər. Bunun ən gözəl nümunəsi kimi istər İkinci Qarabağ savaşına qədər, istər 44 günlük Vətən müharibəsi dövrü, istərsə də tarixi Zəfəri qazanmağımızdan ötən müddətdə türk qardaşlarımızdan gördüyümüz əvəzsiz mənəvi dəstəyi xüsusi olaraq vurğulamaq lazımdır.***



# Azərbaycan-Türkiyə birgə təlimləri: Dosta güvən, düşmənə göz dağı

*Regional sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə iki qardaş ölkənin mühüm töhfəsi*







Azərbaycanla Türkiyə arasında münasibətlər digər sahələrdə olduğu kimi, hərbi sahədə də  yüksək səviyyədədir. Azərbaycan və Türkiyə hərbçiləri arasında müntəzəm keçirilən hərbi təlimlər də bunun sübutudur. İki ölkə arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq , ölkəmizdə quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir. Birgə təlimlərə iki ölkənin ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, həmçinin hərbi aviasiya və hava hücumundan müdafiə vasitələri cəlb edilir.

Türkiyə Respublikasının Konya şəhərində keçirilən "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimləri də sözügedən hərbi təlimlər sırasında  mühüm yer tutur. Belə ki, iki dövlətin Hərbi Hava Qüvvələrinin iştirakı ilə keçirilən birgə taktiki-uçuş təlimlərinin planına uyğun olaraq, Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri gündüz döyüş uçuşları həyata keçiriblər. Plana uyğun olaraq, Azərbaycan və Türkiyə hərbi təyyarəçiləri birgə əməliyyat çərçivəsində havadan hücumla şərti düşmənin hava hücumundan müdafiə vasitələrini, strateji obyektlərini və bu obyektləri müdafiə edən təyyarələrini məhv etmək tapşırığını uğurla icra ediblər.

Qeyd edək ki, Azərbaycan hərbi təyyarəçiləri təlimə Su-25 hücum və MİQ-29 qırıcı təyyarələri ilə qatılıblar. Qeyd edək ki, təlimlər sentyabrın 17-dək davam edəcək.

Müdafiə Nazirliyinin mətbuat xidmətdindən verilən məlumata görə, təlimin növbəti mərhələsində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları qardaş ölkənin hərbi qulluqçuları ilə birlikdə əməliyyatların planlaşdırılması, şərti düşmənin terror-diversiya qrupunun zərərsizləşdirilməsi və onların müvəqqəti bazasının məhv edilməsi üzrə döyüş atışlı təlim tapşırıqları yerinə yetiriblər. Katerlərin də iştirakı ilə keçirilən təlim-məşqlərdə şərti düşmənin hədəfləri məhv edilərək qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

Qeyd edək ki, Azərbaycan ilə Türkiyə arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən Laçın rayonunda birgə döyüş atışlı taktiki təlim başlayıb. Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb ki, qədim və köklü çinarın budaqları olan Türkiyə və Azərbaycan "Bir millət, iki dövlət!" anlayışı ilə bir yumruq olmağa davam edir: "Azərbaycanın Hərbi Dəniz Qüvvələri və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıları sentyabrın 6-dan Laçında "Birgə Komando Əməliyyatı" təlimi keçirir. Təlimlər sentyabrın 10-dək davam edəcək".

Azərbaycan və Türkiyə hərbçilərinin iştirakı ilə keçirilən təlimdə əsas məqsəd döyüş əməliyyatlarının aparılması zamanı qarşılıqlı fəaliyyətin və döyüş uzlaşmasının təkmilləşdirilməsinə, o cümlədən komandirlərin hərbi qərar qəbuletmə və bölmələri idarəetmə bacarıqlarının inkişaf etdirilməsinə yönəldilib. Təlimdə müasir döyüş texnikası və digər hərbi vasitələrin çətin relyef şəraitində istifadə etmə vərdişlərinin artırılmasına xüsusi diqqət yetirilib.

Onu da vurğulayaq ki, ölkə arasında hərbi təlimlər region ölkələri tərəfindən də diqqətlə izlənilir. Belə təlimlər Türkiyə və Azərbaycanın hərbi sahədə güclərinin birləşdirilməsində, eyni zamanda, hərbçilərimizin döyüş qabiliyyətinin artırılmasında, bu sahədə daha böyük təcrübə toplamasında mühüm rol oynayır.

Qardaş ölkələr arasında bu cür birgə təlimlərin keçirilməsi ekspertlər tərəfindən də yüksək dəyərləndirilir.

Təlimlər artıq ənənəvi xarakter daşıyır

Ehtiyatda olan polkovnik Şair Ramaldanov məsələ ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin birgə fəaliyyəti, təlimlər və digər döyüş hazırlığı növlərinə uyğun tədbirlər artıq ənənəvi xarakter daşıyır: "Nəzərə almaq lazımdır ki, iki qardaş ölkə arasında imzalanan müvafiq sazişlərlə hərbi sahədə əməkdaşlıqla bağlı hüquqi baza formalaşdırlılıb. Bunun əsasında da iki ölkənin Silahlı Qüvvələri hər an bir-birilərinin maraqlarına uyğun çıxış edə bilərlər. Ona görə də iki ölkə arasında hərbi sahədə sıx əməkdaşlığa ehtiyac var. İki ölkə mütəmadi olaraq birgə təlimlər keçirməli, həmçinin lazım olduqda həmin saziş  əsasında birgə fəaliyyət göstərərək  döyüş tapşırıqları, əmrləri yerinə yetirmək üçün hazır olmalıdırlar."

## Laçında keçirilən təlimlər: Relyef Qarabağa uyğundur

Polkovnik Laçında keçirilən təlimlərdən bəhs edərkən vurğuladı ki, Laçın mina cəhətdən daha az təhlükəlidir. İkinci bir tərəfdən, Laçın Qarabağın relyefini tamamilə özündə əks etdirir: "Laçın bizim üçün çox vacib bir ərazidir. Oradan dəhliz, Şuşaya yol keçir. Ümumiyyətlə Laçının yerləşdiyi ərazi strateji əhəmiyyət daşıyır. Bu, bir daha Azərbaycan və Türkiyənin arasında hərbi sahədə əməkdaşlığın nə qədər sıx olmasının göstəricisidir."

## Təlimlərin keçirilməsində məqsəd...

Ş.Ramaldanov təlimlərinin yüksək səviyyədə davam etdirildiyinin və qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyinin şahidi olduğumuzu qeyd etdi: "Müdafiə Nazirliyinin də bildiridiyi kimi, təlimlərin keçirilməsinin məqsədi  iki ölkənin Silahlı Qüvvələrinin arasında qarşılıqlı əlaqələrin yaradılması və təlim iştirakçılarının qarşıya qoyulan tapşırıqları birgə fəaliyyət göstərərək yerinə yetirməsidir. Eyni zamanda təlimlər zamanı yeni texnikanın tətbiqi, həmin avadanlıqdan istifadə vərdişləri inkişaf etdirilir. Bildiyimiz kimi, bu təlimlər artıq Azərbaycan tərəfindən döyüşlərdən çıxmış, döyüş təcrübəsi qazanmış şəxsi heyətin cəlb olunması ilə keçirilir. Bu, irimiqyaslı deyil, taktiki təlimlərdir. Bu təlimlər müəyyən bir ssenari üzrə keçirilir. Təlimlər hər şeydən əvvəl ordumuzun döyüş qabiliyyətinin artırılmasına xidmət edir. Bu cür təlimlər həm də regionda sülh və təhlükəsizliyin təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir.

## Bu təlimlər Ermənistanda olan revanşistlərə xəbərdalıqdır

Müsahibimiz əlavə etdi ki, Azərbaycan-Türkiyə əlaqələrinin bu qədər yaxın olması bütün dünyaya bir ismarıcdır: "Təlimlər dostlarımızı sevindirir, düşmənlərimizi isə ciddi narahat edir. Bütün bunlar həm də düşmənə ciddi mesajdır ki,  Azərbaycan tək deyil. İki qardaş ölkə bir-birinə arxalanaraq bir-birini dəstəkləyərək öz inkişaf yolunu keçirlər. Dünyada bir-birinə bu qədər sıx münasibətləri olan dövlətlər tapmaq çətindir. Odur ki, ermənilər revanşist niyyətlərindən əl çəkməlidirlər. Bu təlimlər Ermənistanda olan revanşist ideyalarla çıxış edən və indiyə qədər müəyyən planlar quran xaricdən idarə olunan qüvvələr üçün əlbəttə ki, ciddi xəbərdalıqdır. Bu, bir daha "Dəmir yumruğ"umuzun nə qədər möhkəm, təsirli olacağının,  istənilən aqressiyanın, məkrli təxribatın qarşısını ala biləcək iqtidarda olmasını göstərir".

Şair Ramaldanovun sözlərinə görə, böyüm maraqla izlənilən təlimlər hər iki dövlətin silahlı qüvvələrinin döyüş bacarığının artırılmasına və ölkələrarasındakı dostluq münasibətlərinin qüvvətləndirilməsinə xidmət edir.

## Təhlükəsizliyə və sülhə iki qardaş ölkənin töhfəsi

"Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə"İctimai Birliyinin sədri Emin Həsənli "İki sahil"ə açıqlamasında qeyd etdi ki, iki ölkə prezidentinin qarşıya qoyduğu tələblər var ki, Azərbaycan və Türkiyənin bütün sahələr üzrə əməkdaşlığı ən yüksək səviyyədə olmalıdır: "Uzun müddətdir ki, iki dövlət quru qoşunları, hava hücumundan müdafiə sistemləri, artilleriya, xüsusi təyinatlı qüvvələr  arasında birgə hərbi təlimlər keçirib. Sentyabrın 6-dan başlayan növbəti təlimlər də hərbi hava qüvvələrinin iştirakı ilə keçirilir. Təlim həm Azərbaycanda, həm də Türkiyədə keçirilir. Bu təlimlərin keçirilməsinin məqsədi regionda və dünyada təhlükəsizliyə, beynəlxalq aləmdə sülhə iki qardaş ölkənin töhfə verməsidir."

## Orta Asiyanın türkdilli dövlətləri də bu prosesə qoşulacaqlar

Müsahibimiz xatırlatdı ki, ordumuzun döyüş hazırlığının yüksəlməsi üçün qardaş Türkiyə ilə keçirilən təlimlər çox önəmlidir. Türkiyə dünyada hərbi  baxımdan güclü dövlətlərdən biridir. Türkiyə ordusunun dünyada böyük nüfuzu, təcrübəsi, döyüş hazırlığı var. Azərbaycan ordusu da peşəkarlığını ilbəil artırır. 44 günlük Vətən müharibəsi bir daha sübut etdi ki, Azərbaycan ordusunun çox böyük döyüş hazırlığı və gücü var. Bu təcrübənin əldə edilməsində qardaş Türkiyə ilə birgə keçirilən təlimlərin, aparılan qarşılıqlı təcrübənin müstəsna əhəmiyyəti var. Eyni zamanda, Azərbaycan hərbçilərinin Türkiyədə aldığı hərbi təhsil, keçdiyi kursun da böyük rolu var. Azərbaycan ordusunun Türkiyə ilə birgə təlimləri ordumuzun inkişafı baxımından önəmlidir. Hesab edirəm ki, gələcəkdə Orta Asiyanın türkdilli dövlətləri də bu prosesdə yaxından iştirak edəcəklər".

Bu dünyaya növbəti mesajdır ki, "Dəmir yumruq"  yerindədir.

E.Həsənli,  eyni zamanda, Laçında keçirilən təlimlərin önəmindən də söz açdı: "İlk dəfə işğaldan azad edilmiş torpaqlarda birgə təlimlər keçirilir. Bu dünya növbəti mesajdır ki, Laçın Azərbaycanın ərazisidir. İki qardaş ölkənin Silahlı Qüvvələri Azərbaycanın işğaldan azad olunmuş digər bölgələrində də təlimlər keçirəcəklər. Azərbaycan və Türkiyə qardaş dövlətlər kimi regionda sülhün qorunmasına töhfə verirlər. Eyni zamanda, Ermənistan və onun havadarlarına göstərilir ki, "Dəmir yumruq" qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə hər zaman hazırdır. Azərbaycan ordusunun təhlükəni aradan qaldırmaq üçün istənilən relyefdə , hər cür hava şəraitinə uyğun yüksək döyüş hazırlığı və gücü var."

Ekspert qeyd etdi ki, bu təlimlər dosta güvən, düşməni qorxu olmaqla yanaşı bərabər olduğumuz zaman gücümüzün necə artmasının nümayişi baxımından da olduqca önəmlidir. Bu təlimlər Türkiyə-Azərbaycan birliyinə, həmrəyliyinə işıq saldı.  Bütün dünyaya nümayiş etdirdi ki, Silahlı Qüvvələrimiz hər bir vəzifəni tək və ya birgə icra etməyə hazırdır və qadirdir.

***Yaqut Ağaşahqızı***

*Təhlil*

# Həyati təhlükəsizliyimiz üçün vaksinasiya olunaq

***Bu gün dünya miqyasında, eləcə də ölkəmizdə koronavirus pandemiyası ilə bağlı yaranmış mənzərə bu virusun nə qədər təhlükəli olduğunu bir daha ortaya qoymuş olur. Hər gün ölkəmizdə onlarla insanın bu virusun qurbanına çevrilməsi həqiqətən də, qorxulu düşmənin içimizdə yaşadığından xəbər verir. Çindən başlanan virus infeksiyası sanki işıq sürəti ilə tez bir zamanda dünya ölkələrinə yayıldı və insanların gizli düşməninə çevrildi.***



Virusun təhlükəli olduğunu nəzərə alan dövlətimiz tərəfindən tez bir zamanda COVID 19-la mübarizə məqsədi ilə tədbirlər görüldü. Yoluxma halının qarşısının alınması məqsədi ilə görülən işlər, bəzi sosial izolyasiya tədbirlərinin tətbiq edilməsi, qapanmalar və bu kimi qərarların qəbul edilməsi virusun yayılmasının qarşısının alınmasına qarşı istiqamətlənmişdir. Qısa zamanda modul xəstəxanaların istifadəyə verilməsi, "Yeni klinika"nın açılışı və s. dövlətimiz tərəfindən həyata keçirilən tədbirlər sırasındadır. Bəşəriyyətin bəlasına çevrilmiş pandemiyaya qarşı ən səmərəli mübarizə aparan ölkələr arasında Azərbaycanın adının yer alması həyata keçirilən tədbirlərin məntiqi nəticəsi idi. Koronavirusa yoluxmuş bütün pasiyentlər Azərbaycanın ən yaxşı xəstəxanalarında dövlətin hesabına müalicə olunaraq sağalıb və bu proses bu gün də davam etməkdədir. Müalicə prosesləri uğurla aparılır və xidmət keyfiyyəti yüksəkdir.

Əlbəttə ki, bu gün də ölkəmizdə mərhələli şəkildə təsirli tədbirlər davamlı olaraq həyata keçirilir və vəziyyət daim nəzarətdədir. Ümumdünya Səhiyyə Təşkilatı "COVID-19"-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə, Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirməsi də təbii ki, ölkəmizdə reallaşan tədbirlərin təzahürüdür. Qətiyyətlə deyə bilərik ki, Azərbaycanda "COVID-19"-la mübarizə istiqamətində görülən tədbirlər sırasında əhalinin vaksinasiyası da uğurla reallaşır. Hər gün yüzlərlə insan yeni növ koronavirus infeksiyası əleyhinə vaksinasiya olunur.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyonu ötüb. Bu statistik rəqəm onun göstəriisidir ki, hər bir vətəndaş peyvəndlənməyə məsuliyyətlə yanaşır. Vətəndaşların bu bəladan xilas yolu vaksinasiyadır. Öz həyatını, yaxınlarını təhlükədən xilas etmək üçün hər bir vətəndaş vaksinasiya olunmalıdır. Vaksinasiya başlanılan ilk günlərdə tərəddüd edənlər bu gün artıq bunun nə qədər vacib olduğunu anlayırlar. Əvvəlki günlərimizə qayıtmaq üçün məsuliyyətli olmalı, düşmənə qalib gəlməli "Biz birlikdə güclüyük" deməliyik. Əlbəttə ki, bir daha vurğulamaq yerinə düşər ki, vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlanılıb. Azərbaycan peyvəndləmə səviyyəsi baxımından MDB ölkələri arasında lider mövqelərdədir.




## AZƏRBAYCAN HAZIRKI QLOBAL TƏHLÜKƏNİ MİNİMUMLAŞDIRMAQ ÜÇÜN SƏMƏRƏLİ TƏDBİRLƏR HƏYATA KEÇİRƏN ÖLKƏLƏRDƏN BİRİDİR

Hazırkı qlobal problemin təsirindən müdafiəsi ölkəmizdə hər bir vətəndaşın vaksinasiya cəlb edilməsi üçün lazımi tədbirlər görülüb. Hətta, ölkəmizdə səyyar vaksinasiya məntəqəlri yaradılıb. ÜST ekspertlərinin də qeyd etdikləri kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimumlaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir. Peyvənd olunan şəxslərin sayının artması xəstəliyin ağır keçirməsinin, eyni zamanda, onun yayılmasının azalmasında mühüm rol oynayır. Amma vaksinasiya olunan insanlarda bu arxayınçılıq yaratmamalıdır. Mütəxəssislərin fikrincə, vaksinasiya və eləcə də yoluxma zamanı əmələ gələn təbii anticisimlər yenidən yoluxma zamanı simptomların ağır keçməməsinə və xüsusən ağır dərəcəli həyati təhlükə təşkil edən immun reaksiyaların yaranmaması üçündür.

Əlbəttə ki, bu gün ölkəmizdə yaradılan şərait bəzi ölkələrdə müşahidə olunmur. Belə ki, peyvəndlərin bərabər və ədalətli şəkildə paylanması məsələsi mühüm əhəmiyyət kəsb edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Baş direktoru Tedros Qebreyesus G20 ölkələrinin liderlərinə müraciət edərək, onları COVID-19 əleyhinə peyvəndləri ən kasıb ölkələrlə bölüşməyə və bu miqyasda pandemiyanın təkrarlanmasının qarşısını almağa çağırıb. O bildirib ki, bütün dünyada 5 milyard dozadan çox peyvəndin tətbiq edilməsinə baxmayaraq, yoluxma və ölüm hallarında kəskin artım qeydə alınır. Tedros Qebreyesus dünyada peyvənd kampaniyası qeyri -bərabər olduğunu diqqətə çatdırıb. Belə ki, statistik rəqəmlərə istinad edərək bildirək ki, bu dozaların təxminən 75 faizi cəmi 10 ölkənin sakinlərinə vurulub. Afrikada peyvəndlə əhatə cəmi 2 faizdir. ÜST rəhbərinin fikirlərinə istinadən qeyd edək ki, COVID-19 pandemiyasını yalnız dünya əhalisinin ən azı 70 faizi peyvənd edildikdə dəf ediləcək.



Cari ilin sentyabr ayına qədər hər bir ölkə əhalisinin ən azı 10 faizi, ilin sonuna qədər - 40 faizi və gələn ilin ortalarına qədər - 70 faizi peyvənd olunmalıdır.

## DİNİNDƏN, İRQİNDƏN ASILI OLMAYARAQ BÜTÜN BƏŞƏR ÖVLADINA MÜNASİBƏT EYNİ OLMALIDIR

Azərbaycan hər zaman dünayanı sülhə, ədalətə çağırdığı kimi, bu məsələdə də mövqeyin ortaya qoymuşdur. Bildiyimiz kimi, peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək, BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürmüşdü. "Azərbaycan bəzi ölkələr tərəfindən ehtiyaclarından bir neçə dəfə artıq peyvənd əldə edilməsini və inkişaf etməkdə olan ölkələri öz əhalisini qorumaq imkanından məhrum etmələrini ictimai şəkildə pisləmişdir" deyən dövlət başçısı İlham Əliyev bildirib ki, davam edən "peyvənd millətçiliyi", inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərə çıxışla bağlı getdikcə dərinləşən qeyri-bərabərlik narahatlıq doğurur. Dövlət başçısını sözlərinə görə, beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 82 faizi zəngin ölkələr tərəfindən alınmış, peyvəndlərin yalnız 0.3 faizi azgəlirli ölkələrin payına düşmüşdür.



Əlbəttə ki, dinindən, irqindən asılı olmayaraq bütün bəşər övladına münasibət eyni olmalıdır. İnsanların kasıb, yaxud varlı ölkələrdə yaşamasından asılı olmayraq, insan amilinə diqqət ayrılmalı və bütün bəşər övladı bu bəladan qısa bir zamanda xilas olmalıdır. Bu yol vaksinasiya olunmaqdan keçir.

***ZÜMRÜD BAYRAMOVA***



# “Yeni geosiyasi reallıq 44 günlük müharibənin məntiqi nəticəsidir”

## Politoloqun maraqlı şərhi

***Əlbəttə ki, müharibədə qələbə sonrakı qələbələrlə möhkəmləndirilməlidir. Bu sözləri SİA-ya verdiyi açıqlamasında politoloq Sahil İsgəndərov deyib.***

Politoloqun sözlərinə görə, döyüş meydanlarındakı qələbə sonradan həm siyasi, həm diplomatik, həm də ki, iqtisadi, mənəvi, mədəni, quruculuq işlərində öz əksini tapmalıdır və bununla da möhkəmləndirilməlidir.

”10 noyabr üçtərəfli bəyannaməsindən sonra artıq regionda həm Azərbaycanın maraqlarına cavab verən, 3+3 formatının meydana gətirilməsi, Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa bəyannaməsi və ümumiyyətlə, Rusiya ilə Türkiyə, Türkiyə ilə Azərbaycan, Azərbaycanla Rusiya arasındakı münasibətlərin daha da sıxlaşması kontekstində regionda bir sıra işlərin görülməsi və ümumiyyətlə, yeni geosiyasi reallığın əməli işlərdə öz təsdiqini tapması konkret olaraq sözsüz ki, 44 günlük müharibənin məntiqi nəticəsidir. İlk növbədə Azərbaycanın abadlıq və quruculuq işləri ilə əlaqədar, ümumiyyətlə ərazilərin minalardan təmizlənməsi ilə bağlı həm Rusiya ilə, həm Qərblə əməkdaşlığı, artıq üç rayonun minalanmış ərazilərinin xəritəsinin Azərbaycana təqdim olunması, daha doğrusu Azərbaycanın konkret siyasəti nəticəsində həmin xəritələrin alınması və həmin ərazilərin minalardan təmizlənməsi və bunun ardınca orada quruculuq işlərinin aparılması, insanların tədricən ora köçürülməsi ilə ən böyük nailiyyətlərdən biri olacaq. Əlbəttə, biz bilirik ki, Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, bu məsələdə tələskənlik olmaz. Çünki, biz bilirik ki, hər bir insanın həyatı qiymətlidir. Yəni, hər bir insanın həyatını ümumiyyətlə qiymətləndirmək qeyri-mümkündür. Bu baxımdan Azərbaycan rəhbərliyi orada konkret təmizləmə işlərindən sonra və xüsusilə də cənab Prezidentin vurğuladığı kimi, orada bizim ən müasir tələblərə cavab verən ağıllı kənd, ağıllı şəhər layihələrinin həyata keçirilməsi ilə insanların ora köçürülməsi başlayacaq ki, bu da konkret olaraq həm humanitar sahədə, həm də ki, sosial-iqtisadi sahədə ən böyük addımlardan biridir. Eyni zamanda uzağa getməyək, həmin ərazilərdə üç beynəlxalq dərəcəli aeroportun salınması ilə bağlı aparılan işlər və artıq Fizuli rayonu aeroportunda ilk sınaq təyyarəsinin enməsi bunu göstərir ki, bax bu da 44 günlük müharibənin nəticələrinin növbəti qələbə dəyərində davamıdır.

Düşünürəm ki, Azərbaycanın hələ bundan sonra görəcəyi işlər çoxdur və əslində Azərbaycan Prezidenti də bunu dəfələrlə vurğulayıb ki, bütün cəmiyyət bu işlərin görülməsində əlbir olmalıdır. İkinci bir tərəfdən mən düşünürəm, diplomatik sahədə uğurlardan, yəni, 44 günlük müharibədəki qələbədən sonra diplomatik sahədə uğurlardan biri dünyanın müxtəlif ölkələrinin və burada təmsil olunan dövlətlərin səfirliklərinin nümayəndələrinin, təmsilçilərinin dəfələrlə həmin düşmən tapdağından azad olunmuş ərazilərə səfər etməsi, ya da bunun təşkil olunması və onlara bütün reallığı, erməni vandalizminin bütün təzahürlərini onlara əyani şəkildə göstərmək və bunu dünyaya yaymaq, konkret olaraq həmin qələbənin fundamentinə, təməlinə yeni bünövrənin qoyulması məsələsində ən önəmli addımdır. Çünki, biz bilirik ki, əslində Azərbaycan yalnız öz ərazilərini təmizləməklə kifayətlənməyəcək. Ümumiyyətlə, indiyə qədər işğal dövründə Azərbaycana dəymiş bütün iqtisadi ziyanı və bütün iqtisadi-mənəvi ziyanın, zərərin hamısını hesaba alıb Ermənistandan tələb edəcək və beynəlxalq qurumlara müraciət edəcək. Bunun üçün də sözsüz ki, bir sıra beynəlxalq qurumların, beynəlxalq missiyaların, ümumiyyətlə, səfirliklərin və dövlətlərin buradakı missiyalarının, beynəlxalq qurumların buradakı missiyalarının həmin bölgələrə səfəri çox zəruridir ki, Azərbaycan da bunu dəfələrlə təşkil edib və bunlar hamısı sənədləşdirilib. Yeri gəlmişkən, həmin qurumların özləri də həmin səfərlər zamanı müxtəlif çoxsaylı faktların qeydə alınmasında yaxından iştirak ediblər. Daha doğrusu özləri üçün bunu qeyd ediblər və sözsüz ki, bunlar da lazım gələndə Ermənistan tərəfindən hesabata və tələbata konkret birləşdiriləcək və onlar müəyyən bir kontekstdə, müəyyən bir çərçivədə tələb olaraq qarşıya qoyulacaq. Həmin bu səfərlər zamanı qeydə alınan faktların da bu məsələdə çox müstəsna rolu olacaq.

Mən düşünürəm ki, bu baxımdan digər tərəfdən, bizim mənəvi qələbəmizin, yəni, döyüş meydanından sonrakı mənəvi qələbəmizi şərtləndirən əsas məqamlardan da biri məhz Şuşada ənənəvi ”Xarı Bülbül” festivalının keçirilməsi oldu ki, orada yalnız Azərbaycan dövlətinin başçısı yox, ümumiyyətlə, Azərbaycan ictimai-siyasi həyatının görkəmli təmsilçiləri, o cümlədən dünyanın bir sıra önəmli, tanınmış ziyalılarının iştirakı bunu təşkil etdi və bunun da hamısı şahidi oldular. İkinci bir tərəfdən Azərbaycanda bir sıra muzeylərin konkret olaraq artıq bərpası və ümumiyyətlə, Şuşa şəhərində konkret olaraq aparılan abadlıq işləri və Şuşanın Azərbaycanın mədəniyyət Paytaxtı elan olunması ilə bağlı görülən işlər, mən düşünürəm ki, döyüş meydanlarındakı qələbəmizin məntiqi davamıdır və onu bir növ daha da möhkəmləndirir və sarsılmaz edir. Bir şeyi yadda saxlamaq lazımdır ki, qələbə yalnız döyüş meydanlarında yox, həm siyasi-diplomatik, həm də mənəvi-mədəni müstəvidə də qazanılmalıdır. Çünki, yalnız döyüş meydanında qazanılan qələbə möhkəm deyilsə, sözsüz ki, sənin döyüş qüdrətin, döyüş gücün də döyüş meydanlarında qələbə qazanmaq qüdrətin yoxdursa, sənin mənəvi, mədəni, tarixi qələbənin də əhəmiyyəti itir. Yəni demək istədiyim odur ki, döyüş meydanında qazanılan qələbə mütləq ictimai, siyasi, iqtisadi, diplomatik, mənəvi, mədəni sahədə qələbələrlə bir-birini tamamlamalıdır və yaxud da əksinə, həmin qələbələr döyüş meydanlarında sənin qələbəni tamamlamalıdır ki, sən bir tam varlıq kimi bütün sahələrdə qələbəni də tam şəkildə ortaya qoya biləsən”, deyə Sahil İsgəndərov bildirib.

***İnam Hacıyev***






Təhmasib Novruzov

# Biznesmen, yoxsa məmur?

Cəmiyyətimizdə, müstəqil Azərbaycanda hələ də sovetlər dövrünün xiffətini çəkənlərin olduğu heç kimə sirr deyil. Yüz yetmiş ildə Azərbaycanın yeraltı , yerüstü sərvətlərini ac qurd kimi talayıb Moskvanı, Leninqradı (İndiki Sank-Peterburqu) tikən, əvəzində xalqa, bu yerin tarixi sahiblərinə sadəcə acından ölməməsi üçün qəpik-quruş verən omperiyanın ləğvindən, ölkəmizin müstəqilliyini əldə etməsindən ötən otuz il ərzində bu qədər tarixi nailiyyətləri görməzdən gələn belə ”sovet vurğunları”na bir az da bu problemdən danışmaq istəyirəm.

Sirr deyil ki, bu gün Azərbaycan cəmiyyətində biznes quranların tam əksəriyyəti ya yüksək çinli dövlət məmuru və onun yaxınlarıdır, ya da deputat və qohum-əqrabası! Bunu sübut etmək üçün, Məşədi İbadın sözü olmasın, vəzifə sahiblərini izləməyə ehtiyac yoxdu. Elə vəzifədən kənarlaşdırılan, deputatlıq mandatı əlindən alınan və ya hər iki halda həbs edilən məmur və deputatların cinayət materialları ilə tanış olmaq kifayətdir. Bir ölkənin ideoloji işinə rəhbərlik edən şəxs dövlətin əmlakını yaxınlarının adlarına özəlləşdirib, ordan əldə etdiyi vəsaitlə böyük biznes şəbəkəsi qurursa, o zaman ölkədə ideologiyanın bu qədər yarıtmaz olduğunu anlamaq çətin deyil. Bu qədər biznes şəbəkəsini idarə etmək dəm-dəm halvası deyil ki, ordan vaxt tapıb ideologiyadakı boşluqları doldurulmasına da əl atsın! Xülasə, fikrim hansısa keçmiş məmuru yıxıb-sürümək deyil və əslində yıxılıb sürünən birini mənim sürüməyimə nə ehtiyac? Onun baltası çoxdan çalınıb və mənim baltama ehtiyac da yoxdur. Məqsədim Azərbaycan cəmiyyətində məmur təyin edilənlərin əksəriyyətinin dərhal boynuna düşən yükü çəkmək haqqında deyil, yaxınlarını başına yığıb biznes bazarını yaratmaq üçün işə başlamasının köklərini araşdırmaqdan ibarətdir. Hardandır bizdə bu qədər pul, mal, dövlət ehtirası? Və həm də niyə qazanmaq üçün məmur , ya deputat olmazdan əvvəl biznesini qurmur, yalnız səlahiyyət sahibi olandan sonra fəaliyyətə keçir?

Bu barədə çox düşündüm, çox götür-qoy elədim, Tehrandakı arxivlərdən ”Tarixi-Nadir”in surətini oğurlatdırıb gətirtdim, oxudum, nəhayət cavabını tapdım. Nə Nadirin, nə Xətainin, nə də digər dövlət adamlarının zamanında bizim millətdə pula bu qədər hərislik faktı tapa bilmədim. Ta Çar Rusiyası və onun xələfi olan Sovet İmperiyası bu milləti rüşvətə, qanunsuz gəlirlərə sövq edənə qədər. Kimsə dodağın büzməsin, mənə inanmırsınızsa, gedib Siz də ”Tarixi-Nadir”i oxuyun. Onda görəcəksiniz ki, haqlıyam. Həm çarın, həm də sovetlərin yerlərdəki nümayəndələrini rüşvətə, qanunsuz gəlirlərə sövq etmək, bununla da onları ”gözükölgəli” edib, buyruq quluna çevirmək, sən demə dövlət siyasəti imiş. Yəni məmur bir balaca cızığından çıxarmışsa, dərhal onu bu qanunsuzluqlarla cəzalandırmaq üçün, onları beləcə özlərinə tabe etdirirmişlər. Elə o dövrün bəlasıdı ki, indi də yaxamızdan tutub, buraxmır. Həmin sovet dövründə məmurlara yaradılan bu ”şərait”dən necə yararlanıblarsa, elə həmin üsulla da indi yararlanmaq istəyirlər.

Mövzu çox geniş və çox mübahisə doğuran mövzudu və mən də bunun fərqindəyəm. Amma belə bir müzakirə açılmasına çoxdan ehtiyac var axı! Tarix boyu milli mənafelər naminə nəinki pulundan, hətta canından keçməyə belə hazır olan kişilərin nəvələri, nəticələri niyə bu qədər pul düşkünü olub və milli mənafeləri də, millətin balalarının gələcəyini də dünya malına belə asanlıqla qurban verirlər? Ciddi mövzudu, deyilmi? Gəlin müzakirə edək və müzakirə edə-edə həm də düşünək. Bəlkə bir yol tapa bildik, inşallah!

# İşğaldan azad olunan ərazilərimiz müasir məkana çevrilir

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı qələbədən sonra işğaldan azad olunmuş ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanıldı. Qısa bir zamanda ermənilər tərəfindən xarabazarlığa çevrilən ərazilərimiz müasir bir məkana çevriləcək. Böyük Qayıdış uğurlarımızdan xəbər verir. Bu gün aparılan təmir-bərpa işləri, infrastrukturun qurulması, böyük tikintilər, beynəlxalq hava limanlarının tikintisi bu yerlərin tezliklə müasir bir məkana çevriləcəyindən xəbər verir. Əlbəttə ki, Azərbaycanın hər bir uğuru, inkişafı diqqətdədir və dünya mətbuatında mütəmadi olaraq işıqlandırılır.

Bu günlərdə Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsindən əvvəl Bakıdan uçan ”Azərbaycan Hava Yolları”na məxsus ən böyük ”Airbus A340-500” tipli sərnişin təyyarəsinin sınaq reysini həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanına enişin icrası diqqətdən kənarda qalmayıb. Belə ki, Belarusun xəbər portalında bununla bağlı məqalə dərc olunub. ”belprauda.com” xəbər portalında dərc olunan məqalədə bildirilir ki, bu, işğaldan azad olunmuş Qarabağın ilk hava limanına eniş kimi də tarixə düşüb. Həmin təyyarə ”Qarabağ” adını daşıyır. Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti 35 dəqiqə olub.



Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcəkdir. Sentyabrın sonunda istifadəyə verilməsi planlaşdırılan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib. Həmçinin, Füzuli Beynəlxalq Hava Limanını ”Zəfər yolu” və Şuşa şəhərinə aparan magistral yol ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir.

Məqalədə, həmçinin avqustun 29-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Füzuli Beynəlxalq Hava Limanında görülən işlərlə tanış olmaları barədə də ətraflı məlumat verilib.

Əlbəttə ki, görülən işlər torpaqlarımızdan məcburi köçkün düşən bir milyondan çox insanımızın ata-baba yurdlarına qayıdacağından xəbər verir. Həyata keçiriləcək layihələr işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Bu gün irimiqyaslı layihələr həyata keçirilir, ”Ağıllı kənd” konsepsiyası reallaşır. Bütün bunlar 30 ilə yaxın həsrətlə öz yurduna dönmək həsrəti ilə yaşayan insaların rahat bir şəraitdə, gözəl bir məkanda yaşayacağına əminlik yaradır.

***Zümrüd BAYRAMOVA***

# Leonid Kalaşnikov: ”Üçtərəfli bəyanatı mübahisələndirmək cəhdləri uğur qazanmayacaq”

Ermənistanda noyabrın onuna keçən gecə imzalanmış kapitulyasiya sənədini şübhə altına almağa yönəlmiş çağırışlar dəfələrlə səslənib.



Bu dəfə belə fikirlər Ermənistanın sabiq prezidenti Serj Sarqsyandan gəlib. Lakin belə çağırışların beynəlxalq instansiyalara çatacağı real görünmür. ”İki sahil” xəbər verir ki, Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov Oxu.Az-a açıqlamasında qeyd edib ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatı mübahisələndirmək cəhdləri uğur qazanmayacaq: ”Əlbəttə, bütün ölkələrdə hər zaman bu və ya digər hadisələr zamanı imzalanmış sənədlərdən narazı olanlar var. Xüsusən də əgər söhbət müharibə və ya sülh kimi mühüm mövzudan gedirsə. Amma imzalanmış sənədə yenidən baxılması şansı yoxdur. Hətta Ermənistanda keçirilən seçkilər də bunu göstərdi. Mənim Nikol Paşinyana və onun komandasına qarşı bütün tənqidi münasibətimə baxmayaraq, məlum oldu ki, erməni əhalisi müharibədən çox sülhü düşünür. N.Paşinyan sülh ilə assosiasiya olunur və düşünürlər ki, o, ölkəni yalnız sülh yolu ilə aparacaq. Zaman və davamlı fəaliyyət stabilliyə gətirib çıxarmalıdır. Sülhə doğru atılan addımların haradan başlandığını mübahisə mövzusu etmək əbəsdir”.

Fikrinin sonunda Leonid Kalaşnikov əlavə edib ki, o heç bir zaman ATƏT-in Minsk Qrupuna etimad etməyib və indi də etmir: ”Onlar heç nə etməyib və etməyəcək. Bu onlara lazım deyil. Problemlər yalnız qonşular tərəfindən həll edilməlidir və söhbət Azərbaycandan, Ermənistandan və bu halda qarant kimi çıxış edən Rusiyadan gedir”.

# Məşhur Məmmədov: “Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir”

***“Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir. Bəli, həqiqətən də bu, danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub. Prezident İlham Əliyev bildirir: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik". Məhz Azərbaycan iqtisadiyyatının güclü olmasıdır ki, Müzəffər Güclü Ordumuzun gücü ilə 30 illik işğal altında olan torpaqlarımızın azad olunmasına nail olduq". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov deyib.***



Məşhur Məmmədov bildirib ki, həqiqətən də sənayenin inkişafı güclü iqtisadiyyatın davamıdır və dövlət başçımızın dediyi kimi, Sumqayıt bu gün nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir: ”Sumqayıt bu gün nəinki Azərbaycanın, hətta Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Cari il yanvarın 18-də Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında sulfat turşusu, şüşə tara məhsulları və vərəqə şüşə istehsal edəcək yeni zavodların təməlinin qoyulması həmin sənaye məhsulları üzrə xaricdən asılılığın aradan qaldırılmasına, yeni iş yerlərinin yaradılmasına imkan verir. Bu, həm də valyutanın ölkəmizdə qalması, yerli istehsalın canlanması, iş yerlərinin yaradılması və iqtisadiyyatın şaxələndirilməsi deməkdir. Bütün bu nailiyyətlər cənab Prezidentin vaxtında sənaye məhəllələrinin və parklarının yaradılması ilə bağlı atdığı addımlar nəticəsində ölkənin qeyri-neft sektorunun inkişafına öz töhfəsini verməkdədir. Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, ölkənin neft yataqları nə vaxtsa tükənəcək: ”Düzdür, respublikada yaxın müddətdə həm yeni neft, həm də qaz yataqlarının istismarına başlanılacaq. Bu zaman hasilat səviyyəsinin sabit qalmasına çalışılacaq. Ancaq əsas gəlir mənbəyi olan ”Azəri”, ”Çıraq”, ”Günəşli” yataqlarında təbii tənəzzül də qaçılmazdır. Bu boşluq, məhz qeyri-neft sektoru hesabına təmin edilməlidir. Tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün, əlbəttə ki, ölkəyə keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır. Çünki bu gün Azərbaycanın tədiyə balansının müsbət səviyyədə saxlanmasının əsas səbəbi neft-qaz amilidir”.

Millət vəkili onu da vurğulayıb ki, dövlət başçımızın 2014-cü ili ”Sənaye ili” elan edərkən başlıca məqsədi ölkəmizin iqtisadi təhlükəsizliyini təmin etmək, xarici dövlətlərdən asılılığını minimuma endirmək, habelə idxalı azaltmaq, istehsal etdiyimiz məhsulların rəqabətə davamlılığını artırmaq və ixracatı çoxaltmaqdan ibarət idi. Ölkə Prezidentimiz həmin ildə qarşıda duran vacib vəzifələrdən danışarkən demişdir: ”Bu il ölkəmizin gələcək inkişaf dinamikasını müəyyən edən sənaye sahəsinə daha da böyük diqqət yetiriləcəkdir. Texnoparklar, yeni sənaye müəssisələri, ixrac yönümlü sənaye məhsullarının istehsalı, emal müəssisələrinin, böyük sənaye komplekslərinin yaranması - bütün bu işlər ölkəmizin gələcək inkişafını təmin edəcək, neft-qaz amilindən asılılığı daha da azaldacaq və ölkə iqtisadiyyatının dayanıqlı şəkildə inkişafını müəyyən edəcəkdir”.

”Məhz Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasətin nəticəsi olaraq son 18 ildə ölkə sənayesinin inkişafı yeni mərhələyə qədəm qoymuşdur”,-deyən millət vəkili bildirib ki, bu illər ərzində milyardlarla manat investisiya yatırılmış, modern və müasir tələblərə uyğun rəqabət qabiliyyətli sənayenin yaradılmasına yönəlmiş tədbirlər real nəticələr vermişdir. Məhz bu gün Sumqayıtın Cənubi Qafqazın sənaye mərkəzinə çevrilməsi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında respublikada yüksək dinamizmə əsaslanan tərəqqi və yüksəlişin əsas ünvanlarından birinə çevrilib. Azərbaycanın mühüm sənaye mərkəzi olan Sumqayıtın qısa zaman kəsiyində həm də geniş quruculuq məkanına çevrilməsinin ən ümdə səbəblərindən biri ölkəmizin bütün bölgləri kimi bu şəhərə Prezident İlham Əliyev tərəfindən xüsusi diqqət və qayğının göstərilməsidir. Digər tərəfdən, müxtəlif sferalar, o cümlədən regionların inkişafına dair dövlət başçısı tərəfindən təsdiq edilən müvafiq proqramlar da Sumqayıtın tərəqqisinin kompleks xarakter daşımasına, o cümlədən infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, bununla da əhalinin həyat tərzinin təmin olunmasına müstəsna töhfələr verib və verməkdədir. Qeyd edilənlər öz növbəsində növbəti dəfə belə bir mühüm məqamın təsdiqi kimi çıxış edir ki, ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin mahiyyətində duran əsas məqam, ilk növbədə xalqın sosial rifahının daha da yaxşılaşdırılması fonunda Azərbaycanın qüdrətli bir ölkəyə çevrilməsinə nail olmaqdır. Və Sumqayıtın inkişaf prosesi sürətli proqram əsasında aparılır. Ölkə başçısının təşəbbüsü ilə indi burada bəlkə də bütün postsovet məkanında yeganə struktur göstəricilərinə əsaslanan sənaye parkı yaradılmışdır. Bakının müəssisələrinin bir hissəsi Sumqayıta köçürülür. Bu proses kortəbii qaydada deyil, müasir standartlara uyğun aparılır”.

M.Məmmədov onu da bildirib ki, sentyabrın 3-də Prezident İlham Əliyev ”Sumqayıt” Elektrik Stansiyasının yeni estakada nasos stansiyasının, Sumqayıt Kimya Sənaye Parkında ”Azmonbat” MMC-nin, Sumqayıt Məhkəmə Kompleksinin açılışını etdi, Sumqayıt şəhərində güzəştli mənzil layihəsi çərçivəsində növbəti yaşayış kompleksinin təməlini qoydu, Sumqayıt şəhər 20 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış oldu: ”Bir sözlə, bütün bunlar Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin real nəticələridir. Sonda dövlət başçımızın cari ilin yanvarın 18-də Sumqayıta səfəri zamanı Aəzərbaycan Televiziyasına verdiyi müsahibəsi zamanı dediyi fikri demək istəyirəm: ”Prezident İlham Əliyev vurğulayıb ki, azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin. Mənim, əlbəttə ki, əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgələrin - Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu, təbiidir. Ancaq eyni zamanda, mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir. Müharibə başa çatdı, müzəffər Ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq”.

**RƏFİQƏ KAMALQIZI**

# Məktəblərin 2 həftə gec başlaması SƏN DEMƏ...




“Məktəblərin 2 həftə gec başlaması ilə bağlı qərarın qəbul edilməsi gözlənilən idi. Çünki, dayanıqlı təhsilə Təhsil Nazirliyinin mövqeyi həmişə pozitiv olub. Nazirin də açıqlamalarının birində qeyd etdiyi kimi ”Pandemiya dövründə insan inkişafını dondura bilmərik. Ona görə də təhsilin dayanıqlı formada təşkili təmin edilməlidir. Çalışmalıyıq ki, sosial-iqtisadi və digər amillər şagirdlərin təhsil almalarına təsir göstərməsin”. Bu sözləri SİA-ya açıqlamasında Təhsil Nazirliyi yanında İctimai Şuranın sədr müavini Nadir İsrafilov deyib.

Onun sözlərinə görə, əsas odur ki, uzun sürən intizara son qoyuldu, çoxlarını maraqlandıran suallara aydınlıq gətirildi: ”Ən başlıcası isə böyük əksəriyyətin arzu və istəyinə uyğun olaraq tədrisin ənənəvi formada başlanmasına kollegial qərar verildi. Hesab edirəm ki, bu qərar bu gün üçün ən optimal variantdır. O ki, qaldı tədrisə başlanmasına niyə sentyabrın 15-i deyil, məhz 22-si və 29-na qərar verilməsinə, bu, sözü gedən məsələyə mərhələli keçidin təmin edilməsi ilə bağlı məsələdir. Bir də ki, tədrisin bir-iki həftə geriyə çəkilməsi, müddət baxımından elə də bir mahiyyət daşımır, lakin bu ertələnmənin proseslərin gedişatını izləmək, müvafiq təhlillər aparmaq və növbəti qərarlar qəbul etməyə hazırlıq baxımından böyük mənası və əhəmiyyəti var”.

Ekspert sözlərinə belə davam edib: ”Ənənəvi tədrisə başlanılması, heç də əyani təhsilin bütün il boyu davamlı və dayanıqlı olacağı barədə kimlərdəsə arxayınçılıq yaranmasına əsas vermir. Hər şey mətbuat konfransında da xüsusi olaraq vurğulandığı kimi vaksinasiyadan, təhsil müəssisələrində sanitar-epidemioloji qaydalara və digər təhlükəsizlik normalarına necə riayət olunmasından asılı olacaq. Yoluxmanın səviyəsinə müvafiq olaraq lokal yanaşma tətbiq oluna bilər, ayrı-ayrı siniflərin distant təhsilə cəlb olunması, ayrı-ayrı məktəblərin müvəqqəti qapanması da istisna olunmur. Bu kimi halların qarşısının alınması üçün, orta ümumtəhsil məktəblərində müəyyən məhdudiyyətlər, ali məktəblərdə müəyyən limit tətbiq edilməsi nəzərdə tutulur. Yəqin ki, yaxın vaxtlarda ictimailəşəcək ”Qaydalar”da bütün bu məqamlar öz əksini tapacaq”.

***Ayşən Vəli***

# Hansı partiya daha güclüdür?

### Arif Hacılı: "Müsavat AXCP-dən güclü partiyadır"

Müsavat partiyası və AXCP arasındakı düşmənçilik mövqeyi uzun illərə söykənən faktdır və bu faktlar kifayət qədərdir. Demək olar ki, bütün seçki proseslərində onlarla blok və birliklərdə təmsil olunan, sonradan isə ayrılan bu partiyalar əsla bir yerdə ola bilməyəcəklərini qarşılıqlı ittihamları ilə sübuta yetiriblər. Hətta bir partiya hər hansı bir boykot qərarı verirdisə, digəri həmin qərara zidd gedir, bununla da fikirlər haçalanırdı.

Hətta bir zamanlar "superpartiya" xəyallarına düşərək birləşəcəklərini iddia edən Müsavat və AXCP sonradan bu iddialarında da cəm olmağı bacara bilmədilər. Təbii ki, bütün bunlar partiya rəhbərliklərinin şəxsi maraqlarına qurban verilən məsələlərdir və hazırda elə bir situasiya yaranıb ki, nəinki Müsavat və AXCP arasında dərin uçurum yaranıb, eləcə də partiyaların özlərinin daxillərində hərcmərcliklər ənənəvi prosesə çevrilib. İstefalar, bunun ardınca isə təhqir və ittihamlar isə adi hal kimi qəbul olunur.

### Arif Hacılı "Yeni Müsavat"ı və Raid Arifoğlunu nədə ittiham etdi?

Lakin mövzudan ayrılmamaq üçün qayıdaq özlərini "ana müxalifət" kimi zorla ictimai rəyə sırıyan iki partiya arasındakı düşmənçiliyə. SİA xəbər verir ki, bugünlərdə Müsavat partiyasının başqanı Arif Hacılı iddia edib ki, Müsavat AXCP-dən güclü siyasi təşkilatdır və cəbhəçilərdə yalnız mətbuat və informasiya işi müsavatçılardan yaxşı qurulub. Ancaq nə qədər qəribə görünsə də A.Hacılı bu günahı - yəni informasiya məsələsində AXCP-dən zəif olması etirafını günah olaraq atıb "Yeni Müsavat" qəzetinin üzərinə - daha dəqiq desək, hazırda siyasi baxışını qərəzli və radikal müxalifətçilikdən normal media maraqlarına yönəldən Rauf Arifoğlunun üstünə.

"Bunun əsas səbəbi ondan ibarətdir ki, Müsavat partiyasının bütün informasiya resursları "Yeni Müsavat" qəzetinin üzərində cəmləşirdi. Sonradan "Yeni Müsavat" qəzetinin belə bir mövqe tutması bizi mətbuat resurslarından məhrum etdi. Nəinki sıfırladı, hətta minusa getdi. Artıq biz mətbuat orqanlarımızı yaradırıq", deyən A.Hacılı iddia edib ki, başqanı olduğu partiyanın saytı olarsa bu sahədə də AXCP-dən daha "güclü" olacaqmış və s.

### Sən demə, Müsavatın informasiya resursu var, amma...

Lakin kiçik bir araşdırma apardıqdan sonra məlum oldu ki, sən demə partiyanın rəsmi saytı 2014-cü ildən fəaliyyət göstərir. Bu zaman sual yaranır: əgər əlinizdə informasiya resursu varsa, eləcə də daha çox resurslar yaratmağın heç də çətin olmayan proses olması nəzərə alınarsa, bu zaman nəyə görə həmin imkanlardan istifadə etmirsiniz? Yaxud, Müsavat həqiqətən də fəaliyyətinə görə AXCP-dən güclüdürsə, həmin gücünü informasiya resurslarında niyə istifadə etmir? Axı kor-kor, gör-gördür ki, partiyanın saytı, üstəli sosial mediada da yetərincə səhifələri və s. mövcuddur.

Bu kimi resurslar AXCP-də də var və partiyanın tabeçiliyndə olan "Azadlıq" qəzetinin elektron variantı, habelə xarici ölkələrdəki YouTube üzərindən yayımlanan sosial şəbəkələri fəaliyyət göstərirlər. Müsavat üçün də bunu etmək çətinlik yaratmır, sadəcə, A.Hacılı necə deyərlər, əzəli rəqibi (düşməni) Əli Kərimlini cırnatmaq üçün bu kimi açıqlamalarla iddiasını ortaya qoyur.

### Nə AXCP Müsavatdan, nə də Müsavat AXCP-dən güclüdür, hər iki partiya ümumilikdə zəif və uğursuzdurlar

Lakin hər şeyə rəğmən, əslində, bu partiyaların daha artıq resurs imkanları olsa belə, heç vaxt normal düşüncəli ictimai rəy qarşısında nüfuz, dəstək qazana bilməyəcəklər. Ona görə yox ki, onlar informasiya yaymaq istiqamətində peşəkar deyillər, ona görə ki, xarici havadarlarından havayı qazanmaq eşqləri hələ də mövcuddur. Çünki AXCP sədri Əli Kərimli də illərdir ki, bu və ya digər informasiya resursları vasitəsi ilə antidövlətçilik fəaliyyəti göstərir, Azərbaycan dövlətinin, hakimiyyətinin qazandığı tükənməz uğurları kölgə altında qoymağa cəhdlər göstərir, amma bu əməllərinin heç bir nəticəsi olmur.

Müsavat partiyasının başqanı Arif Hacılı da bu cür fəaliyyət göstərərək, məhz bundan sonra AXCP-dən qat-qat güclü olacağını hesab edirsə, yanılır. Fakt budur ki, nə AXCP Müsavatdan, nə də Müsavat AXCP-dən güclüdür, hər iki partiya ümumilikdə zəif və uğursuzdurlar.

**_Rövşən RƏSULOV_**

TƏRS BAXIŞ

# NATO Rusiyadan qorxur, ona görə də...



Ukrayna qarşıdakı on ildə NATO üzvü ola bilməyəcək, çünki alyansın özündə Rusiyadan mənfi reaksiya verməkdən qorxan müxalifət var. Bu fikri çərşənbə axşamı Vaşinqton Atlantik Şurasında keçirilən video seminarda onun rəhbəri və Amerikanın Kiyevdəki keçmiş səfiri Con Herb bildirib.

"Düşünürəm ki, bununla bağlı sual yoxdur. Ukrayna yaxın 10 ildə, əlbəttə ki, NATO -ya üzv ola bilməyəcək Çünki bu gün ittifaq daxilində buna qarşı ciddi müqavimət var. Əslində bü müqvimət qorxu müqavimətidir. Yəni ittifaq rəhbərliyi Ukraynanı təşkilata qəbul etməklə Rusiyanı qıcıqlandırmaqdan qorxurlar. Düşünürəm ki, bu düşüncə xətti dəhşətlidir, amma siyasi reallıq belədir" .

Qeyd edim ki, bunlar ABŞ-ın Ukraynadakı keçmiş səfiri Con Herbə məxsusdur. Onu da bildirək ki, bir müddət bundan əvvəl Amerika lideri ilə görüşən Vladimir Zelenski Ukraynanın NATO-ya daxil olma ehtimalı ilə bağlı ondan dəstək istəmişdi.

Bundan bir qədər əvvəl isə Ağ Evin mətbuat katibi Ceyn Psaki, Ukraynanın Şimali Atlantika Alyansının standartlarına uyğun gəlməsi üçün bir sıra şərtləri yerinə yetirməli olacağını bildirmişdi.

**_Ağasəf_**

# Əli Kərimli, Əli Əliyev kimilərinə xitabən:



*"Bu hiyləgər xəyanətlər; Tariximin neçə-neçə varağını ləkələdi, qaraladı"*

2020-ci il sentyabrın 27-də xalqımız "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır" deyən Ali Baş Komandan İlham Əliyevin ətrafında bir daha bir yumruqla birləşdi. Həmin dəmir yumruq ilə 30 ilə yaxın müddətdə torpaqlarımızı işğal altında saxlayan düşmənin başı əzildi. 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu öz qəhrəmanlığı və şücaəti ilə Ermənistan silahlı qüvvələrini, erməni mifini darmadağın etdi. Cəmi 44 gün ərzində Azərbaycan öz gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Noyabrın 10-da Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı. Bu kapitulyasiya aktına görə, bir güllə atmadan Kəlbəcər, Laçın və Ağdam rayonları Azərbaycana qaytarıldı, Azərbaycan bayrağı tarixi torpaqlarımızda yenidən qürurla dalğalandı. Xalqımızın 30 illik torpaq həsrətinə son qoyuldu, tarixi ədalət bərpa edildi. Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazandı, bütün dünyaya güclü, qüdrətli dövlət olduğunu bir daha nümayiş etdirdi və sübut etdi ki, xalqımız qalib xalqdır.

Qələbəmizdən qısa müddət sonra işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin başlanması üçün genişmiqyaslı planlar hazırlandı. İlk addımlar hərbi əməliyyatlar başa çatdıqdan dərhal sonra atılmağa başladı. Dekabrın 23-də Prezidentimizin Zəngilan, Qubadlı və Laçın rayonlarına səfəri zamanı Güləbird SES-in açılışı, eləcə də Ağalı kəndində tətbiq olunacaq ilk "ağıllı kənd" layihəsinin hazırlanması ərazilərin ən yeni dünya standartları səviyyəsində bərpa olunması üçün bütün dövlət qurumlarının tam səfərbər olunduğunu göstərdi. 30 ilə yaxın müddətdə erməni vandalizminə məruz qalan tarixi diyarımız Qarabağın yenidən canlandırılması, dirçəldilməsi ümumxalq hərəkatına çevrildi. Qarabağda sürətli yenidənqurma, tikinti və bərpa işlərinə başlanıldı. Ötən il noyabr ayının 16-da, Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı təməli qoyulmuş Zəfər yolu cəmi 2 ay ərzində genişləndirildi. Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olundu. Prezident İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə "Xarıbülbül" musiqi festivalı keçirildi. Bu günlərdə Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi, eləcə də Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi Füzuli Beynəlxalq Hava Limanına eniş icra etdi.

Təbii ki, bütün bunlar xalqımız tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Tarix həqiqəti, olub-keçənləri özündə əks etdirən, bəşəriyyətə keçmişi öyrədib, gələcəyi düşünməyi diktə edən müdrik bir müəllimdir. Məhz tarix sübut edir ki, güclü və müdrik lider hər bir xalq, hər bir dövlət üçün çox mühüm amildir. Biz bunu müstəqil Azərbaycanımızın timsalında da görmüşük və bu gün də görürük. Ulu öndər Heydər Əliyev ölkəmizi, xalqımızı fəlakətdən necə xilas etmişdisə, Prezident İlham Əliyev də bu gün Azərbaycanı böyük bəlalardan qoruyur.

Bütün bunları gözü götürməyən dairələr, o cümlədən dağıdıcı müxalifət müxalifətin başbilənləri -AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, eləcə də siyasi mühacir adı ilə xarici ölkələrə sığınan Qənimət Zahid, Sevinc Osmanqızı, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli kimi satqın antimilli ünsürlər sosial şəbəkələrdə ölkəmizə qarşı qarayaxma kampaniyası aparırlar. Bu "sapı özümüzdən olan baltalar", naxələflər, ermənidən çox erməni olan xəyanətkarlar Azərbaycan haqqında şər və böhtanlar yayır, həqiqətləri təhrif edir, "YouTube" və "Facebook"dakı çıxışları, absurd monoloqları ilə cəmiyyətdə yanlış ictimai rəy yaratmağa, Qələbəmizin tarixi əhəmiyyətini azaltmağa çalışırlar. Belə yerdə Xalq şairi Bəxtiyar Vahabzadənin bir şeirindəki misraları xatırlamamaq olmur: "Neçə kərə; Tarix endi zirvələrdən dərələrə: Bu hiyləgər xəyanətlər; Tariximin neçə-neçə varağını ləkələdi, qaraladı."

Təbii ki, Azərbaycanın inkişafını, Qarabağın işğaldan azad olunmasını gözü götürməyənlər, xalqımızın ruh yüksəkliyinin artmasından xoflanan anti-Azərbaycan dairələr, erməni lobbisi və mənfur düşmənlərimizin havadarları daxildəki bu cür dağıdıcı qüvvələri ölkəmizin əleyhinə daha da fəallaşdırmaq üçün var qüvvələri ilə çalışır, onlara ayırdıqları maliyyə yardımlarını birə-beş qat artırırlar. Ancaq bütün bunların, necə deyərlər, qorxunun əcələ heç bir faydası yoxdur. AXCP sədri Ə.Kərimli, VİP sədri Ə. Əliyev kimi xəyanətkarlar unudurlar ki, tutduqları düzgün yol deyil. Müxalifətçilik belə olmur. Mənəvi-psixoloji burulğanlar girdabında çırpınan belələri nədənsə hər şeydən əvvəl vətəndaşlıq borclarını "yaddan çıxarırlar". Bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib tula payı almaqla, yallanmaqla heç nəyə nail ola bilməyəcəklər. Beləlvaleri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxanları düşmən yalı ilə bəslənənləri tarix heç vaxt unutmur, xalq yaddan çıxarmır və həmişə lənətlə xatırlayır.

**_Zahid Rza_**



Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti çərçivəsində hazırlanıb.*

# Azərbaycan idmanı uğurlu inkişaf dövrünü yaşayır

SƏRH

**Prezident İlham Əliyev: "Bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır"**

Müasir dünyamızda Azərbaycan idmanı inkişafının ən yüksək dövrünü yaşayır. Əlbəttə ki, idmanın bugünkü inkişaf səviyyəsi Azərbaycan Prezidenti İlham Əliyevin həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi bu sahəyə ayırdığı diqqətin nəticəsidir. İdmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib və dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur. Vurğulamaq yerinə düşər ki, ölkəmizin idman sahəsində əldə etdiyi uğurlar beynəlxalq idman təşkilatları tərəfindən maraqla qarşılanmış və ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən çıxışında bildirdiyi kimi, "Bütövlükdə idman sahəsi Azərbaycanda sürətlə inkişaf edibdir və bu gün dünya miqyasında Azərbaycan idman ölkəsi kimi tanınır. Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər. Düzdür, Azərbaycan ictimaiyyəti bizim idman sahəsindəki qələbələrə öyrəşib və əgər biz hansısa nəticəni əldə edə bilmiriksə, əlbəttə ki, məyus olur. Ancaq hamımız bilməliyik ki, idman sahəsində rəqabət kifayət qədər güclüdür və bütövlükdə son illər ərzində idman sahəsində göstərilən nəticələr, əlbəttə, qürurvericidir".

**"İDMAN SAHƏSİNDƏ ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏR ÇOX MÜSBƏTDİR"**

Əgər idman sahəsində uğurlarımıza və idmançılarımızın əldə etdiyi nailiyyətlərə nəzər salsaq görərik ki, Azərbaycan idmançıları beynəlxalq yarışlarda kifayət qədər yüksək nəticələr əldə etmişdirlər. İdmançılarımıza ayrılan diqqət, göstərilən etimad cavabsız qalmamışdır. Belə ki, Sidney görüşü ölkəmizə 2 qızıl, 1 bürünc medal qazandırdı. Afinadan Azərbaycana 5 medalla qayıdan idmançılarımız Pekin yarışlarında 1 qızıl, 2 gümüş, 4 bürünc medalla idman tarixinə imza atmış oldular. İdmançılarımızın dünya birliyində tanınmasına səbəb olan London XXX Yay Olimpiadası daha uğurlu oldu. Belə ki, qaliblər üçün nəzərdə tutulan medallardan 2 qızıl, 2 gümüş, 4 bürünc qazanmaqla ölkəmizə 10 medalla döndülər. Çində keçirilmiş yeniyetmələrin Yay Olimpiya Oyunlarında gənclərimiz əlavə aktivlər qazandılar. Göründüyü kimi saymaqla bitməyən uğurlar Azərbaycan idmanının qələbəsidir. XIII Avropa Gənclərinin Olimpiya Festivalı atletlərimiz üçün uğurlu oldu. 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla ümumi turnir cədvəlində 22-ci yeri tutdular. Və hər zaman idmançılarımız qələbə sevincini yaşayıb və bizlərə yaşadırlar. Əgər idmanın qələbə sorağından yazırıqsa, buraya Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunlarını da qeyd etməliyik. "Bakı-2015" ilk Avropa Oyunlarında yarışlarda Azərbaycan atletləri 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla 56 medal qazanaraq 2-ci yeri tutması, eləcə də IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımız möhtəşəm uğura imza atmış oldular və "Bakı-2017"nin ən güclüləri oldular. Dövlət başçısı çıxışında bildirib ki, idmançılarımız Dünya, Avropa oyunlarında, digər beynəlxalq yarışlarda bizi sevindirirlər: "Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub. Düzdür, idmançılarımız bu dəfə qızıl medal qazana bilmədilər, amma ona çox yaxın idilər. Amma yenə də deyirəm, idmanda məğlubiyyətlər də olur, qələbələr də olur. Bütövlükdə idman sahəsində əldə edilmiş nəticələr çox müsbətdir".

Qeyd edək ki, Azərbaycanın "Tokio-2020" Yay Paralimpiya Oyunlarında iştirakı və uğur qazanmaları Azərbaycan idman tarixində önəmli yer tutur. İdmanın 22 növü üzrə 529 dəst medal uğrunda keçrilən yarışlarda Azərbaycan millisinin 14 qızıl, 1 gümüş və 4 bürünc olmaqla, ümumilikdə 19 medal qazanması böyük nailiyyət oldu və bu Azərbaycanın 25 illik paralimpiya tarixində bu, ən uğurlu Paralimpiya Oyunları kimi tarixiləşdi. Dövlət başçısı "Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən bir çox qızıl medallar qazanıblar", - deyən dövlət başçısı bunun çox önəmli hadisə olduğunu və haqlı olaraq paralimpiyaçılarımızla fəxr etdiyimizi bildirib.

**BÖLGƏLƏRDƏ 50-YƏ YAXIN İDMAN-OLİMPİYA KOMPLEKSİ FƏALİYYƏT GÖSTƏRİR**

Cənab Prezident son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımızın bizim təcrübəli idmançılar olduğunu da qeyd edib və onların demək olar ki veteran idmançılar olduğun diqqətə çatdırıb: "Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır".

Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisini diqqətə çatdıran Cənab Prezident təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksinin fəaliyyət göstərdiyini qeyd edib. Əlbəttə ki, bu gün ölkəmizin hər bir guşəsində yeni idman mərkəzləri, olimpiya kompleksləri istifadəyə verilib. Beyləqan Olimpiya İdman Kompleksi, Ağcabədi Olimpiya İdman Kompleksi, Lənkəran Olimpiya İdman Kompleksi və digər şəhərlərdə müasir standartlara cavab verən komplekslər var. Eləcə də paytaxtımızda Bakı Olimpiya Stadionu fəaliyyətdədir. Dövlət başçısı bildirib ki, biz bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin: "Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır".

**"BUNDAN SONRA MÜZƏFFƏR XALQ KİMİ, QALİB ÖLKƏ KİMİ, QÜRURLU İNSANLAR KİMİ ƏBƏDİ YAŞAYACAĞIQ"**

"İdman sahəsində tərbiyə məsələlərinə də çox ciddi diqqət yetirmək lazımdır", - deyən Cənab Prezident bildirib ki, bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır: "Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır".

Əlbəttə ki, hər bir gənc millimənəvi dəyərlərə, ənənələr sahib olmalıdır. Onların vətənpərvər gənc kimi böyümələri vacib amillərdəndir. Bir insan, vətəndaş olaraq torpağa, vətənə sədaqət, məhəbbət hissi aşılanmalıdır. Əlbəttə ki, biz 44 günlük Vətən müharibəsində gənclərimizi necə yüksək vətənpərvər olduqlarını gördük. Vətən qarşısında ən müqəddəs borcu verərək qanı-canı bahaldarına işğaldan torpaqlarımızı azad etdilər. "Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır", - deyən Cənab Prezident 44 günlük Vətən müharibəsinin hər gününün bizim üçün əziz, doğma olduğunu bildirib: "Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. Uzun illər Azərbaycan işğala məruz qalmış ölkə, biz azərbaycanlılar isə düşmən tərəfindən öz doğma torpağından didərgin salınmış xalq kimi yaşamışıq, əzab-əziyyət içində yaşamışıq, fiziki və mənəvi əzablar içində yaşamışıq. Biz buna son qoyduq. Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq".

*Nəzakət ƏLƏDDİNQIZI*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

9 sentyabr


# "Şakira ilə sevgili olmağa başlayanda..."



**"Barselona"nın futbolçusu Jerar Pike Xosep Qvardiolanın Kataloniya klubunu çalışdırdığı dövrləri xatırlayıb. Qol.az xəbər verir ki, 34 yaşlı müdafiəçi İspaniya mətbuatına açıqlamasında həmin vaxtlarda mütəxəssislə münasibətlərinin yaxşı olmadığını deyib:**

"Bəzən Qvardiola aramızda gərginlik baş verirdi. O, hər şeyə nəzarət etməyi sevirdi. Şakira ilə sevgili olmağa başlayanda Qvardiola ilə aramızda problemlər yaranmağa başladı. Ən çətin dövrlərim Qvardiolanın baş məşqçiliyi altında olub. Klubdan ayrılmağı belə düşünürdüm". Qeyd edək ki, Qvardiola 2008-2012-ci illərdə "Barselona"nı çalışdırıb.

# "Neftçi"də braziliyalı hücumçu



"Neftçi" heyətini yeni futbolçu ilə gücləndirib. Belə ki, "ağ-qaralar" braziliyalı hücumçu Tiaqo Bezerranı transfer edib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. Tiaqo ilə imzalanan müqavilənin detalları açıqlanmayıb.

34 yaşlı futbolçu "Neftçi"də 9 nömrəli formanı geyinəcək. Qeyd edək ki, Bezerra daha əvvəl Türkiyədə "Altay", "Adana Dəmirspor", Özbəkistanda "Paxtakor", Qətərdə "Əl Sailiyə"də çıxış edib.

# Məhkəməlik oldular



2000-ci illərin aparıcı musiqi qruplarından olan "Pussycat Dolls"-un prodüser-qurucusu Robin Antin, qrup üzvləri ilə yenidən bir araya gəlmək və 2019-cu ildə qastrol səfərləri etmək üçün müqavilə imzalayıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, Robin Antin, qrupun solisti Nikole Scherzingeri müqaviləyə əməl etmədiyi üçün məhkəməyə verib.

İddiaya görə, Nikole Scherzinger, gəlirin 75 faizinin ona veriləcəyi başqa bir müqavilə imzalamaq istəyir. Bu səbəbdən, sözügedən müqavilənin şərtlərini yerinə yetirmir. Mövcud müqavilədə 6 nəfərlik qrupun gəlirinin 49%-i Nikole Scherzingerə verilmişdi.

*Ayşən Vəli*

# Milyonçu olacaq



Tennis turnirində 18 yaşlı britaniyalı Emma Radukanu, 62 ildə son 16-ya yüksələn ən gənc oyunçu oldu. SİA xarici mətbuata istinadən xəbər verir ki, ancaq o, oyun zamanı həyəcandan nəfəs almaqda çətinlik çəkdiyi üçün oyundan çəkilməli olub. Emma ötən gün ABŞ Açıq Tennis turnirində dünya 1 nömrəli və Vimbledon çempionu avstraliyalı Ashleigh Barty-ni məğlub edərək ABŞ-dan Shelby Rogersə qalib gələrək dördəbir finala yüksəlib.

Covid-19 dövründə açıq bir məhkəmə tapa bilmədiyi üçün çıxılmaz qalıb küçədə atası ilə məşq edən Emma Radukanu, bu qələbə ilə 366 nəfərlik dünya siyahısında sonuncu yerdən 80-ci yerə yüksəlib. Bu qələbə sponsorlara indiyə qədər 500 min funt qazanan tennisçinin qapısını döymək imkanı verib. Emmanın 2021 -ci ilin sonuna qədər milyonçu olacağı təxmin edilir.

*Ayşən Vəli*

# Oturaq rejim onurğa sütununda problemlər yaradır



***Son vaxtlar onurğada protruziyalar, yırtıqlar, miyofasial ağrı sindromları, uşaqlarda skolioz, kifoz və müxtəlif qamət problemləri ilə əlaqədar müraciətlər artıb. Səbəblər isə daha çox həyat tərzi və gündəlik vərdişlərlə bağlıdır. Müasir dövrdə texnoloji tərəqqi zamanında insanlar oturaq rejimdə, hipodinamik şəraitdə, müxtəlif planşet və smartfonların istifadəsi ilə çox vaxt keçirirlər. Orta statistik insan gündə təxminən 9 saat oturaq vəziyyətdə və qapalı məkanlarda olur.***

Mərkəzi Gömrük Hospitalının həkim-fizioterapevti Səidə Kərimova bu barədə AZƏRTAC-ın müxbiri ilə söhbət edərkən deyib: "Onurğa mürəkkəb bir strukturdur. Onurğa həm fiziki təsirə məruz qalır, həm də müxtəlif istiqamətlərdə hərəkəti təmin edir. Ona görə də onurğa strukturlarının stabil olması çox vacibdir. Oturanda onurğanın bel hissəsinə düşən yük 11 dəfə artır. Artıq çəki varsa, yüklənmə daha çox olur. Belə vəziyyət davamlı olursa, təbii ki, nəticədə müxtəlif problemlər ortaya çıxır. Əzələlər zəifləyir, onurğa strukturları stabilliyini itirir, protruziya və yırtıqların yaranmasına daha meylli olur".

O, həmin xəstəliklərin müalicəsində müasir fizioterapiyanın rolu barədə danışarkən deyib: "Fizioterapiya vasitəsilə bədənin bərpa gücünü artırmaq, həmçinin prosedurlar nəticəsində ağrılı və xəstə nahiyəyə təsir etmək olur. Belə ki, dərmansız, əlavə təsir olmadan müalicəvi effekt almaq olur. Fizioterapiyada yüzlərlə prosedurlar və metodikalar var və onlar hər bir pasiyent üçün fərdi olaraq seçilir. Bəzən fizioterapiyanı "şüa verən" müalicə kimi təsəvvür edirlər. Bu, tamamilə səhv yanaşmadır. Fizioterapiyada sağlamlıq üçün təhlükəli ola biləcək şüalardan istifadə olunmur. Daha dəqiq desək, fizioterapiya təkcə aparatlarla müalicə deyil. Müalicəvi idman fiziki terapiyanın əhəmiyyətli hissəsidir. Əzələ zəifliyi, qamət problemləri, skolioz, kifoz zamanı, travma, xəstəlik və əməliyyatdan sonra bərpa kursunda mütləq xüsusi idman proqramı tətbiq olunur. Fizioterapiya əməliyyat tələb edilməyən ortopedik xəstəliklərdə - artrozlarda, oynaq və əzələ xəstəliklərində, travmadan sonra reabilitasiya dövründə, insultdan sonrakı nevroloji reabilitasiyada, tənəffüs yolları, ginekologiya xəstəliklərində, hətta bariatrik cərrahiyyədən sonra da istifadə olunur. Fizioterapevtik müalicənin tətbiq olunmadığı xəstəlik deməK olar ki, yoxdur".


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600